www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 oktyabr 2015-ci il Bazar ertəsi № 219 (6247) Qiymәti 40 qəpik

**Xəbər**

## Tərtərdə oğul öz ata-anasını amansızcasına qətlə yetirdi

yazısı səh.14-də

**Gündəm**



### Bu gün Türkiyə SQ Baş Qərargah rəisi Bakıya gəlir

**Ekspert:** "O, iki ciddi məsələyə görə Azərbaycana təşrif buyurur..."

yazısı səh.6-da

### Azərbaycanlı professordan 4 ölkə prezidentinə analoqu olmayan təklif - "İttifaq yaradaq..."

yazısı səh.10-da

### Rusiya ölkəmizdə hərbi baza yaratmaqdan imtina etdi

yazısı səh.6-da

*İlqar İbrahimoğlu:*

### "Azərbaycanın və dünyanın gələcəyi "Z"lərdir"

yazısı səh. 8 və 9-da

### Qarabağda müharibəyə aparan səbəblər çoxalır

**Rusiyalı analitik:** "Azərbaycan yeni savaşa sürüklənir..."

yazısı səh.11-də

### Martirosyanı verib Dilqəmlə Şahbazı geri ala bilərikmi?

yazısı səh.3-də

### Füzulidə imza verənləri çörək pulu ilə təhdid edirlər

yazısı səh.4-də

### Azərbaycanlı milyonerlərin "Dumanlı Albion"da ev sevdası...

yazısı səh.15-də

### Reallaşmayan tibbi sığorta və təhlükə qarşısında qalan genefondumuz

yazısı səh.13-də

### Minval.az-ın sef-redaktoruna qarşı dələduzluq araşdırılmamış qalıb

yazısı səh.10-da

### Yeni icra başçısı sahibkar-polis qarşıdurmasına müdaxilə etdi

yazısı səh.13-də

### Bakını Avropa şəhərindən fərqləndirən daha bir "özəllik" - səs terroru...

yazısı səh.14-də

## Putinin "Böyük səkkizliy"ə möhtəşəm qayıdış planı

# KRİTİK ANTALYA SAMMİTİ - BAKI ÜÇÜN DƏ MÜHÜM GÖZLƏNTİ VAR

Rusiya Türkiyədə ya təklənəcək, ya da güclənəcək; Azərbaycan prezidentinin də qatılacağı gözlənilən "G20" zirvəsində Ərdoğanla Putin yenidən bir araya gələcək; Suriyaya dair bazarlıqda Moskva Ankara və Qərblə anlaşa biləcəkmi?..




yazısı səh.5-də

## "Salyan qruplaşması" hakimiyyətdəki bütün rıçaqlarını itirir

Ziya Məmmədovun qudası general Əliağa Hüseynov mandatsız qala bilər; iqtidarın "qara siyahısı"nda olan Abbas Abbasov oğlunu Bakıdan çıxarır; YAP-ın namizədliyindən imtina edən Leyla Abdullayeva Müəllimlər İnstitutuna rəhbər gəlir?..

yazısı səh.4-də




### Əli Kərimlinin müşavirinin həbsi narazı tərəfləri üz-üzə qoydu

yazısı səh.3-də



### Elza Seyidcahan 10 min imza məsələsinə aydınlıq gətirdi

yazısı səh.12-də



*Etimad Əsədov:*

### "Qaçqınkom" qarşısında mitinq keçirilməsinə ehtiyac var..."

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015



## Fazil Mustafa Xoşqədəmin verilişinin bağlanmasını pislədi

**Milli Televiziya və Radio Şurasının ANS telekanının efirində yayımlanan "Xoşqədəmlə axtrıram səni" verilişini 5 oktyabr tarixindən etibarən bağlaması ölkə ictimaiyyəti tərəfindən birmənalı qarşılanmayıb. Teleradio Şurasının bu qərarına haqq verənlər də var, ona qarşı çıxanlar da. Modern.az xəbər verir ki, verilişin bağlanmasını pisləyənlərdən biri də deputat Fazil Mustafadır. O, məsələylə bağlı bunları bildirib:**

""Xoşqədəmlə axtrıram səni" verilişini bağladılar. Məncə tamaşaçı zövqü bəhanədir. Azərbaycanda çoxluğun zövqünə tam uyğun bir veriliş idi. Çox adam tanıyıram ki, o verilişin vaxtını gözləyirdi ki, oturub bir az ağlayıb yüngülləşsin. Bayağılığa qalsa, teleməkanın böyük hissəsini bu bayağılıq bürüyüb. Cəmiyyəti düşünməyə, axtarmağa sövq edən alternativ verilişlər üzərində düşünmək lazımdır. Elmi, siyasi, intellektual debatlara yer vermek daha faydalı olardı. Əks halda, elə bu boşluğa qapılıb insanlar yenə də "Onu" axtaracaqlar".



## Aygün Kazımovadan ölkədən çıxmaq qadağasına reaksiya

**Xalq artisti Aygün Kazımovanın həmkarından üzr istəməməsi ona baha başa gəlib. Belə ki, məhkəmə qətnaməsini icra etmədiyi üçün xalq artistinə ölkədən çıxmaq qadağan olunub. Bu barədə mətbuata müğənni Natavan Həbibinin vəkili Fərid Həsənov məlumat verib.**

Vəkil bildirib ki, oktyabrın 1-də Nəsimi rayon İcra şöbəsinin təqdimatına baxan Nəsimi rayon məhkəməsi A.Kazımovanın ölkədən çıxışına qadağa qoyulması barədə qərar çıxarıb. Səbəb isə xalq artisti tərəfindən məhkəmə qətnaməsinin tam icra olunmamasıdır. Həmin qətnaməyə əsasən A.Kazımova N.Həbibidən üzr istəməli və yaydığı məlumatları təkzib etməli idi. Lakin o, qətnaməni tam formada icra etməkdən boyun qaçırır.

Məsələ ilə əlaqədar Aygün Kazımova açıqlama yayıb. Məlumatda bildirilir: "Bu yalan və həqiqəti özündə əks etdirməyən xəbərdir. Natavan mənim ölkədən çıxmağıma qadağa qoyulmasını ancaq yuxusunda görə bilər. Hər zamanki kimi, yalan və yanlış məlumatlar yaymaqla məşquldurlar".

Qeyd edək ki, N.Həbibi A.Kazımovanı onun şərəf və ləyaqətinin təhqir olunması, işgüzar nüfuza xələl gətirməsi iddiası ilə məhkəməyə vermişdi. Məhkəmənin qərarına görə, xalq artisti Natavan Həbibinin erməni milliyyətinə mənsubluğu barədə yaydığı yalan məlumatı və işlətdiyi təhqiramiz ifadələri təkzib etməli, ondan üzr istəməlidir. A.Kazımova İnstaqram hesabında dediklərini təkzib edən status yazmışdı: "Öz səhifəmdə Natavan Həbibinin erməni olduğunu qeyd etmişdim. Lakin uzun sürən məhkəmə araşdırmasından sonra məlum oldu ki, fikrim yanlışdır. Məhkəmənin qətnaməsini qəbul edərək Natəvan Həbibi barədə dediyimi təkzib edirəm".

❑ Xalidə GƏRAY

## Bu gün Bakıda yağış yağacaq

**Oktyabrın 5-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Fasilələrlə yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Trend-ə verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi gündüz mülayim şimal-şərq küləyi ilə əvəz olunacaq. Temperatur gecə 16-19°, gündüz 22-25° isti təşkil edəcək.**

Azərbaycan rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 12-17°, gündüz 21-26° isti olacaq, dağlarda gecə 7-12°, gündüz 16-21° isti olacağı gözlənilir.

# Türkiyədə Qarabağ müharibəsinə dəstək çağırışları



**Qarabağ Azadlıq Təşkilatının (QAT) nümayəndə heyəti "Qarabağ təbliğat turu" çərçivəsində növbəti tədbirini Türkiyənin İstanbul şəhərində keçirib. İstanbulun Fərid Tunca Öndər konqres mərkəzində baş tutan tədbirdə QAT-ın Türkiyə nümayəndəliyinin rəhbəri Cəfər Dal, QAT İdarə heyətinin üzvləri Rəhman Cəfərov, Hüseyn Hüseynov, "Yaddaş" sənədli filminin rejissoru Elxan Xanəlizadə və Türkiyə ictimaiyyət nümayəndələri, ziyalılar, tələbələr iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan QAT-ın Türkiyə nümayəndəliyin rəhbəri Cəfər Dal əvvəlcə QAT sədri Akif Nağının salamlarını çatdırıb və hamını "Yaddaş" sənədli filminə baxmağa dəvət edib. Tarix boyu Azərbaycan türklərinə qarşı törədilən erməni cinayətlərini özündə əks elətdirən "Yaddaş" sənədli filmi böyük maraqla qarşılanıb. Filmi izlədikdən sonra Cəfər Dal hamını müzakirələrə dəvət edib və ona ünvanlanan suallara cavab verib. Tədbirə qatılan BAB-ın sədri Aqil Səmədbəyli, Ural Strateji Araşdırmalar Dərnəyinin başqanı Bülənt Maşaoğlu, Türk Xalqları Konqresinin başqanı Rafet Ulutürk, Ural Dərnəyinin üzvləri Məltəm Öndər, Bülənt Maşaoğlu və digər iştirakçılar çıxış Qarabağ probleminin həll olunmasında bütün türk dünyasının birgə mübarizə aparmalarının vacibliyindən danışıblar. QAT Türkiyə nümayəndəliyinin sədri Cəfər Dal Azərbaycan ordusunun gücündən, Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə qarşılıqlı münasibətlərin ən yüksək səviyyədə olması haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Uzun sürən müzakirələrdə Azərbaycan xalqının Qarabağ mövzusundakı həssaslığından və Ali Baş Komandanın əmri olacağı halda, hamının bir nəfər kimi işğal edilən torpaqların azad olunması uğrunda mübarizəyə başlayacağı vurğulanıb. Sonda iştirakçılara "Yaddaş" sənədli filminin nüsxələri və QAT-ın Qarabağla bağlı müxtəlif nəşrləri paylanıb.

Cavid TURAN

## Qeydə alınmayan Müsavat namizədi prezidentdən görüş istəyir

**Müsavat Partiyasının 82 saylı Ağcabədi seçki dairəsindəki namizədi Rəşid Nəcəflinin qeydə alınmaması ilə bağlı məlumat vermişdik. MSK-ya müraciət edən namizədin iddiası yenə də təmin olunmayıb. R.Nəcəfli apelyasiya şikayəti verib.**

R.Nəcəfli baş verən qanun pozuntuları ilə bağlı prezidentdən görüş istəyir. "Yeni Müsavat"a müraciət edən namizəd bildirib ki, Ağcabədidə artıq yaşaya bilmir, insanlara təzyiqlər edilir, vətəndaşlar qorxudulur. R.Nəcəfli baş verənlərin başında YAP-çı deputat, hazırda hakim partiyanın namizədi olan Tahir Rzayevin dayandığını deyir: "Mənə verilən qərarda bildirirlər ki, imzaları ilə bağlı etiraz edənlər var. İmza vərəqəsinin ortasında Müsavat yazılıb. 200 nəfər insanı aldatmaq olar? Muğanlı kəndində repressiya həyata keçirilib. Hücum nəticəsində xəstələnənlər, şəkəri qalxanlar olub. Tahir Rzayevin bacısı mənə dedi ki, qardaşım yuxarılara hesabı çatdırıb. Tahir Rzayev kimə arxalanıb fironluq edir? DSK üzvünün etirafı var ki, seçicilərə təzyiq edib. Vətəndaş kimi prezidentə müraciət edirəm ki, məni qəbul eləsin. Ağcabədidə baş verənləri ölkə başçısına anlatmaq istəyirəm. Artıq rayonda yaşaya bilmirəm. Sakinlərin gözlərinə baxa bilmirəm. Çünki mənə görə təzyiqlərlə üzləşirlər. Dövlət etibarlı adamlardan ibarət komissiya göndərsin, onda hər şey görünəcək. Oktyabrın 5-də Prezident Aparatının qarşısına gedəcəyəm. Prezident olmasa da, məsul bir şəxs məni qəbul etsin".

❑ Cavanşir ABBASLI



## "Əli Kərimlinin qurultayı AXCP nizamnaməsinə ziddir"

**"AXCP EQTK Ədliyyə Nazirliyinə 27 sentyabrda Əli Kərimlinin qurultay adıyla keçirdiyi toplantısında baş vermiş qanun pozuntularıyla bağlı müraciət edib". Bu barədə AXCP EQTK-nın mətbuat katibi Vüsal Qarayev məlumat verib.**

Mətbuat katibinin sözlərinə görə, müraciətdə bildirilir ki, 27 sentyabr 2015-ci il tarixində səlahiyyətləri 25 sentyabr 2014-cü ildən bitmiş AXCP sədri Əli Kərimli AXCP-nin qurultayı adıyla tədbir keçirib və bu tədbir partiyanın nizamnaməsinin tələbinə ziddir: "Partiya nizamnaməsinin tələbinə əsasən qurultayı 4 ildən gec olmayaraq keçirilməlidir. AXCP isə son qurultayını 25 sentyabr 2010-cu ildə keçirib. Bundan başqa, tədbirdə partiyanın nizamnaməsinin tələbinə zidd olaraq qurultay nümayəndələri iştirak etməyiblər. AXCP üzvləri adıyla tədbirin keçirildiyi məkana insanları toplayaraq qurultay keçirilməsi fonu yaradılıb".

Mətbuat katibi onu da Qeyd edib ki, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası qanunun 6-cı maddəsinin 7-ci bəndində göstərilir ki, siyasi partiyanın rəhbər orqanlarının təşkili qaydası və səlahiyyətləri, onların səlahiyyət müddətləri nizamnamədə göstərilməlidir. Nizamnaməyə əsasən isə partiyanın seçkili orqanlarının səlahiyyət müddəti 4 ildir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;



## NİDA-çı namizədə qarşı seçki təzyiqləri...

**NİDA Vətəndaş Hərəkatının 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən olan namizədi Rahid Beşirov qanun pozuntuları ilə üzləşib. Ona imza verən vətəndaşlara imzalarından imtina etmək üçün təhdidlər edilir. 8 gündən artıqdır ki, imza vərəqələrini dairə seçki komissiyasına təqdim etməsinə baxmayaraq, hələ də cavab verilməsi yubadılır.**

Bu barədə müsavat.com-a R.Beşirovun özü məlumat verib: "Zəngilan şəhər icra nümayəndəsinin sədri Murad Rəhimov imza atan şəxslərə zəng edərək, təzyiq edir ki, niyə mənə imza veriblər. Bu Seçki Məcəlləsində cinayətdir. Bütün bunlar qeydə alınmamağıma bir hazırlıqdır. İmza vərəqələrini 8 gündür təqdim etmişəm. Hələ də bir cavab verilməyib. Dairə seçki komissiyası belə etməklə qanun pozuntusuna yol verir. Çünki ən gec halda 7 gün ərzində cavab verilməlidir".

❑ Cavanşir ABBASLI

## Aygün Səfərova və Azər Axşam ATV-də

**Uzun illər ANS-də çalışan tanınmış aparıcı Aytən Səfərova artıq ATV-də fəaliyyət göstərəcək. Mətbuatda yayılan məlumata görə, bir müddət öncə ANS rəhbərliyi ilə münasibətləri soyuqlaşan Səfərova ATV-dən gələn təklifə müsbət cavab verib.**

Eyni zamanda tanınmış aktyor və şoumen Azər Axşam da "Xəzər" televiziyasından ayrılaraq ATV-yə keçid edib. Məlumata görə, tanınmış yeni mövsümdə ATV-də aparıcılıq edəcək.

Qeyd edək ki, Azər Axşam bundan öncə də ATV-də müxtəlif verilişlərin aparıcısı olub.

❑ Xalidə GƏRAY

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Əli Kərimlinin müşavirinin həbsi narazı tərəfləri üz-üzə qoydu

## Zərərçəkən Məmməd İbrahimin 23 yaşında oğurluq üstündə həbs olunduğunu iddia edir; Mikayıl Quliyev: "Köynəyimi cırmısan, xəsarət yetirmisən, get cəzanı çək..."

**AXCP sədri Əli Kərimlinin müşaviri Məmməd İbrahim barəsində oktyabrın 3-də Nərimanov Rayon Məhkəməsi iki aylıq həbs qətimkan tədbiri seçib. Hakim Məzahir Sadıqovun sədrliyi ilə keçən prosesdə müşavir xuliqanlıq maddəsi ilə ittiham olunub. Qeyd edək ki, M.İbrahim Razi Nurullayevin tərəfdarlarından olan Mikayıl Quliyevin şikayəti əsasında həbs olunub. Sentyabrın 29-da Nərimanov Polis İdarəsinə şikayət ərizəsi ilə müraciət edən M.Quliyev müşavir tərəfindən döyüldüyünü bildirib.**

Hadisə də həmin gün axşam saatlarında baş verib. Tərəflər arasındakı əlbəyaxa davadan sonra Quliyev polisə şikayət edib. M.İbrahim polis idarəsinə dəvət olunsa da, izahatı alındıqdan sonra sərbəst buraxılmışdı. Lakin, hadisədən bir gün sonra yenidən idarəyə dəvət olunan müşavir barəsində bu dəfə xuliqanlıq maddəsi ilə cinayət işi başlanılmış, 48 saat saxlanılma qərarı çıxarılmışdı.

AXCP üzvləri sosial şəbəkələrdə hadisəni "işverən"lik kimi qələmə verirlər. Müşavirin həbsindən sonra, onsuz da əvvəllər gərgin olan münasibətlər daha da kəskinləşib. Hər iki narazı tərəf bir-birilərinin ünvanına ən ağır ittihamlar, təhqirlər səslənirirlər. Məsələ o yerə çatıb ki, artıq cəbhəçilər bir-birilərinin ailələrinə "dil uzatmaq"dan belə çəkinmirlər...

Zərərçəkən Mikayıl Quliyev məhkəmənin qərarını ədalətli sayır: "Məhkəmənin qərarı, düşünürəm ki, doğrudur. İstintaqın gedişi də bunu göstərəcək. Yəqin ki, proses davam edəcək. Qərarımda qətiyəm. Məhkəmədə iştirak etmədim. Qərardan sonra ünvanıma təhqiretmə halları daha da artıb. Məmməd İbrahim bu cinayəti törədib. Kişi kimi boynuna almalıdır. Aidiyyəti orqanlar bu işlə ciddi maraqlanırlar. Heç bir narahatçılığım yoxdur. Bundan sonra da ciddi maraqlanacaqlarına inanıram. Yalandan deyir ki, məni şərləyib tutublar. Mən onu heç yerə çağırmamışam. İfadəsində bildirib ki, guya mən onu döymüşəm. Əgər onu döymək istəsəydim, işdən çıxanda döyərdim, heç kəs də görməzdi. O, 23 yaşında oğurluq üstündə həbs olunan adamdır. Elə bilir ki, hamı ona qəhrəman kimi baxacaq. Onun arxivi ortaya çıxanda, görək kim ona qəhrəman kimi baxacaq. Əminəm ki, o, təxribata gəlmişdi. İstəyirdi ki, onu mən döyüm. Yanımızda olan cəbhəçilərin onu dəstəkləməsini Məmməd İbrahim istəyirdi. Amma onlar kişilik etdilər. İfadələrində hər şeyi olduğu kimi danışdılar. Məmməd İbrahim özünü həbs etdirdi. Planı baş tutmadı. Məndən şikayət edib, tutdurmaq istəyirdi. Düzgünlüyün nəticəsində, o, həbs olundu. Kameranın göstərilməsini tələb edirəm. Hər şey sübut olunacaq".



Məmməd İbrahim

M.Quliyev baş verən hadisədən Razi Nurullayevin xəbərsiz olduğunu söylədi: "20 gündən çoxdur ki, mən Razi bəyi görməmişəm, telefon danışığım belə olmayıb. Tapşırıq almaq isə, ola bilməz. Liderimiz olsa da, onu çox görmürəm. Bizə belə tapşırıq verilsəydi, onlar kimi saxta profillər yaradıb, var-yox söyüşü yağdırardıq. Deyirlər ki, guya təşkilatımızın Nərimanov şöbəsinin sədri Şirvani Qasımov məni öyrədib. Əksinə, döyülən zaman ona zəng etdim ki, polisə gedirəm. Mənə dedi ki, lazım deyil. İkinci dəfə olduğundan artıq dözə bilmədim. Əvvəllər yevlaxlı olduğuna görə hörmət edirdim. Yerli olduğumuza görə hər sözünü udmalı deyiləm ki. Məmməd İbrahim elə zənn edirdi ki, mən də onun ətrafındakılar kimiyəm. Köynəyimi cırmısan, xəsarət yetirmisən, get cəzanı çək".

❑ Cavanşir ABBASLI

# Arvadın saxta imzası, imzatoplama videosu və imzadan imtinanın muzdu



**Samir SARI**

**Hər seçkidə lətifəyə oxşayan əhvalatlar olur. Onların bəzilərini gəlib bizə danışırlar, deyirlər, yazın, xalq da bilsin. Bəzilərini yenə danışırlar, amma "yazmaq üçün deyil, biabır olarıq, yazmayın" deyirlər. Bəzi seçki lətifələrini isə ümumiyyətlə bizə danışmırlar, sonradan bilirik.**

İndi mən sizə onlardan bir neçəsini nəql edəcəm.

1995-ci ildə parlament seçkilərində namizədliyini irəli sürənlər 2 min imza toplayıb verməliydilər və o vaxt bu qədər imzanı toplamaq çətin deyildi: xalq fəal, müxalifət güclüydü. Masallıda Adəm adlı müsavatçı (rayon təşkilatının sədri) namizədliyini irəli sürmüş, qısa müddətdə 2200-ə yaxın imza toplayaraq, DSK-ya təhvil vermişdi. İntəhası, o vaxt da hökumət belə fikirləşirdi ki, lazım olmayan qüvvələr seçkidə iştirak eləməsələr yaxşıdır. Bu məqsədlə ölkə üzrə "imzaların saxta çıxarılması" prosesinə start verilmişdi və eyni fənd Masallıda Adəm bəyə də tətbiq edilmişdi. "Ekspertlər" Adəmin 350 imzasını "saxta" çıxarmışdılar, demişdilər, imzalar eyni adam tərəfindən atılıb, bir-birinə bənzəyir. Adəm maraqlanmışdı ki, görsün, bir-birinə bənzəyən hansı imzalardır. Bəy bir də baxmışdı ki, bay, bunun sovet nikahı, molla kəbini ilə ailə qurduğu ömür-gün yoldaşının imzasını da saxta çıxarıblar. Adəm hiddətlənmişdi, DSK rəhbərliyinə demişdi: "İndi nə deyirsiniz, yəni mən evdə arvadından imza ala bilməyəcək dərəcədə zəif kişiyəm, ay alçaqlar?"

O məsələnin apelyasiyası-filanı olmadı, bəyin namizədliyi qeydə alınmadı və Adəm qısa müddətdən sonra acıq eləyib ölkədən getdi Tümen tərəflərə.

İkinci seçki qaravəllisi isə 2000-ci ildəki seçki kampaniyasında baş verib. O vaxt namizədliyini irəli sürmüş şəxslər artıq təcrübəliydilər, bilirdilər ki, toplanmış imzaların saxta çıxarılması kimi bir şey var, ona görə də çalışırdılar imzalar tər-təmiz olsun. Bir namizəd isə seçicilərdən aldığı imzaların sənədli-sübutlu olmasının qayğısına qalmışdı. Bu, Sumqayıt şəhərindəki seçki dairələrinin birindən namizədliyini irəli sürmüş Tahir Əliyev idi - Gömrük Komitəsinin sabiq sədri.

Bundan ötrü Tahir Əliyev videooperator qrupu tutmuş, imzasını aldığı hər bir seçicini və onun imzavermə prosedurunu videolentə aldırmışdı. O vaxt ölkədə rəqəmsal videokameralar yox idi, çəkilən videolar adi kasetə yazılırdı. Ona görə də Tahir Əliyevin əlində 8 dənə "İmza kaseti" vardı. O da topladığı 2000-dən artıq imzanı DSK-ya təhvil verir, DSK-nın ekspertləri onun da imzalarını saxta çıxarmağa başlayanda sabiq gömrükçü prosesə müdaxilə edir, kasetləri də götürüb DSK-ya gedir, "ekspert"lərə deyir, hansı imza saxtalığından söhbət gedə bilər, aldığım 2 mindən artıq imzanın hamısının videosu var. DSK-da pərtlik yaranır, amma komissiya üzvləri at kimi üzə dayanırlar, deyirlər, yox, imzalar saxtadır və sizin namizədliyiniz qeydə alına bilməz. Tahir Əliyev onsuz da ağırsözlü adam idi, bu vəziyyətdə DSK üzvlərinə nə deyib, nə söyüb, tarix bu barədə susur. Ancaq reallıq ondan ibarətdir ki, o da acıq elədi, bir daha namizədliyini irəli sürmədi.

Belə haqq-hesablar, yəni imzaların saxta elan edilməsi ilə şanslı namizədin seçkiyə buraxılmaması faktları 2005-ci və 2010-cu illərdə keçirilən seçki kampaniyalarında da baş verib, ona görə də bu, artıq heç kəsi təəccübləndirmir. Ta hamımız bilirik ki, bu ölkədə insanların tam əksəriyyətinin nəinki seçib-seçilmək, hətta namizədlik irəli sürmək, qeydə alınmaq hüququ da yoxdur.

Bununla belə, bu il həmin məsələdə bir novatorluq da var. Bu namizəd olmaq istəyənə imza vermiş şəxsdən imzasından imtina ərizəsi almaqdan ibarətdir. Yenilik ondan ibarətdir ki, bu dəfə adamı 2010-cu ildə olduğu kimi polis maşınına basıb bölməyə aparmır, bığını qırxacaqları ilə hədələyib ərizəsini almırlar, pul təklif edirlər. Üçü razılaşmayanda ikisi razılaşır, məsələ həll olur. O gün İmişlidə belə ediblər, sabiq deputat İltizam Əkbərliyə imza verənlərin bəziləri durduq yerdə pul qazanıblar.

Əsl namizəd belə olmalıdır, özü imza verənə pul verə bilməsə də, dolayısı ilə seçicisinə pul qazandıra bilməlidir.

# Martirosyanı verib Dilqəmlə Şahbazı geri ala bilərikmi?

## Zahid Oruc: "Bu iki məsələyə eyni hüquqi müstəvidə baxıla bilməz..."

**2014-cü ilin iyulunda Kəlbəcərdə ermənilərin qətlə yetirdiyi Azərbaycan vətəndaşı Həsən Həsənovun dəfn olunmasından dünən bir il keçdi. Bu münasibətlə Həsən Həsənovun məzarı başında onun anım mərasimi keçirilib. Mərasimdə mərhumun doğmaları ilə yanaşı, onu tanıyan və tanımayan insanlar, ictimai-siyasi xadimlər iştirak ediblər.**

Həsən Həsənovla birlikdə Kəlbəcərə valideynlərinin məzarını ziyarət etməyə gedən Dilqəm Əsgərov və Şahbaz Quliyev isə hələ də işğalçı Ermənistan tərəfindən girov saxlanılır. Bu bir ildən artıq müddətdə Azərbaycan hökumətinin onların azad olunması istiqamətində apardığı işlər hələ ki, müsbət nəticələnməyib.

Son günlər isə sosial şəbəkədə bəzi vətəndaşlar tərəfindən belə fikirlər səslənir ki, Dilqəm Əsgərovu və Şahbaz Quliyevi azad edib gətirmək üçün hökumət bu ilin sentyabrında könüllü olaraq ailəsi ilə Azərbaycana gələn Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vahan Martirosyanı işğalçı ölkənin iqtidarına təhvil versin. Bu təkliflə çıxış edən insanların düşüncəsinə görə, Ermənistan prezidenti Serj Sərkisyan Bakıdan onu ifşa edən Vahan Martirosyanı almaq naminə Dilqəm Əsgərovu və Şahbaz Quliyevi girovluqdan azad edə bilər.

Bəs, Azərbaycan hökuməti bu addıma gedə bilərmi, belə bir addımın atılmasına beynəlxalq konvensiyalar yol verirmi?



Vahan Martirosyan



Dilqəm Əsgərov



Şahbaz Quliyev

Milli Məclisin müdafiə və təhlükəsizlik komitəsinin üzvü Zahid Oruc bildirdi ki, Vahan Martirosyan və Dilqəm Əsgərov, Şahbaz Quliyev hadisələri nə hüquqi, nə də siyasi baxımdan eyni müstəvidə götürülə bilməz. Çünki Martirosyan öz ölkəsinin hakimiyyətinin cinayətlərinə qarşı protest eləyərək könüllü şəkildə Azərbaycana özünü təslim edib və Azərbaycanın ona sığınacaq verməsini istəyib, buradan da qazandığı tribunadan erməni gerçəkliklərini ortaya qoyub, siyasi hakimiyyəti ifşa edib. Bizim soydaşlarımız Dilqəm və Şahbaz isə Ermənistanın işğalında olan öz doğma kəndlərini məcburən gizli yollarla ziyarətə gedərkən əsir götürülüblər və bu gün də girovluda saxlanmaqdadırlar: "Martirosyan girov deyil, Azərbaycana sığınan ermənidir. Vahan Martirosyanın Dilqəm və Şahbazla dəyişdirilməsi təklifində beynəlxalq konvensiyalar gözlənilmir. Beynəlxalq konvensiyalar o halı tanımır ki, Azərbaycana könüllü keçən və öz dövlətinin siyasətini pisləyən şəxs öz ölkəsinə təhvil edilsin. Biz Dilqəm Əsgərovla, Şahbaz Quliyevin azad olunmasının təmin edilməsinin yollarını axtarıb tapmalıyıq".

Deputat onu da qeyd etdi ki, Martirosyan kimi ermənilərdən Azərbaycan Qarabağın azad olunması üçün siyasi mübarizəsində istifadə etməlidir: "Əlbəttə ki, bizim ölkənin sərhədlərini bütün ermənilərin üzünə açmadan və bunu Qarabağ probleminin həlli modeli kimi təklif eləmədən hər zaman belə düşünmüşəm ki, təmas xəttini keçib bu yana gələn ermənilərdən də Azərbaycan öz torpaqları uğrunda mübarizədə istifadə etməlidir. Onlar siyasi mübarizənin müəyyən bir hissəsinə çevrilə bilərlər. Müəyyən mənada onlar kiçik bir təşkilati qrup yaradaraq ermənilərə Azərbaycanda digər vətəndaşlar kimi birgə yaşayış imkanı tanındığı mənzərəsini ortaya qoya bilərlər. Biz bilməliyik ki, Qarabağ ermənilərini Ermənistandan ayırmaq üçün bizim fərqli siyasətə ehtiyacımız var. Səngərdə dayanan erməniyə ciddi zərbə vurduğumuz kimi, sakit, qanuni prinsipləri tanıyan, ərazi bütövlüyümüzə hörmətlə yanaşan, Azərbaycanla normal münasibətlərə gedən ermənilərə də ikinci ayrı bir münasibəti göstərməliyik. Bu halda biz beynəlxalq aləmə təqdim edə bilərik ki, bizim problemimiz Azərbaycanı özünə düşmən sayan ermənilərlədir. Azərbaycan Martirosyanı Ermənistana təhvil versə, sabah Sərkisyan rejiminin terroru altında inləyən heç bir erməni bizim tərəfə keçməz".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

# “Salyan qruplaşması” hakimiyyətdəki bütün rıçaqlarını itirir

## Ziya Məmmədovun qudası general Əliağa Hüseynov mandatsız qala bilər; iqtidarın “qara siyahı”sında olan Abbas Abbasov oğlunu Bakıdan çıxarır; YAP-ın namizədliyindən imtina edən Leyla Abdullayeva Müəllimlər İnstitutuna rəhbər gəlir?

**1 noyabr parlament seçkilərində iştirak etmək üçün deputatlığa namizədliklərini verən şəxslərin seçici imzalarının Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi üçün müəyyən etdiyi müddət bir sıra sürprizlərlə başa çatıb.**

41 saylı Sumqayıt birinci seçki dairəsindən hakim Yeni Azərbaycan Partiyasının (YAP) vahid namizədi, deputat Leyla Abdullayevanın seçkilərdən qəfil geri çəkilməsi bir sıra fərqli reaksiyalar doğurub. Xəbərlərə görə, buna səbəb onun Sumqayıt Təhsil Şöbəsinə müdir təyin ediləcəyidir. Bəzilərinin rektor kürsüsünü qoyub deputatlığı seçdiyi halda, L.Abdullayevanın mandatdan təhsil şöbəsinin müdiri vəzifəsinə görə imtinası o qədər də inandırıcı görünmür.

“Yeni Müsavat”a daxil olan xəbərə görə, Leyla Abdullayevanın Müəllimlər İnstitutunun rektoru təyin ediləcəyi gözlənilir. Məlumdur ki, uzun illərdir Müəllimlər İnstitutuna rəhbərlik edən Aqiyə Naxçıvanlı seçkiyə qatılıb və rektor yerini boşaldıb. İddialara görə, YAP namizədi məhz razılaşma nəticəsində mandat yarışından imtina edib. Sumqayıt şəhər 18 saylı orta məktəbin direktoru işləyən Leyla Abdullayevanın bu şəhərin keçmiş icra başçısı, hazırda mədəniyyət və turizm nazirinin birinci müavini olan Vaqif Əliyevlə qohumluq münasibətlərinin olduğu da iddia edilir. Zakir Fərəcov Sumqayıta icra başçısı təyin edildikdən sonra o, özünə yaxın kadrları başına toplayır. Leyla Abdullayeva isə artıq Sumqayıtda “yad” hesab olunur. Məlumata görə, təkcə Aqiyə Naxçıvanlının yeri üçün deyil, boşalmış bütün rektor postları uğrunda hakimiyyətdə ciddi mübarizə gedir.

Baş nazirin keçmiş birinci müavini Abbas Abbasovun oğlu Aydın Abbasovun deputatlığa namizəd olmaqdan son anda imtina etməsinin də özəl səbəbləri var. Aldığımız məlumatlarda deyilir ki, Abbas Abbasov oğlunun mandatını və biznesini xilas etmək üçün “AzerRos”dan getsə də, iqtidar bu jestə əhəmiyyət verməyib. Bu yöndə danışıqlara hətta Abbas Abbasovun yaxın dostu, Dağıstan prezidenti Ramazan Abdulatipovun vasitəçiliyi də heç nəyi dəyişməyib. Abbas Abbasov bir neçə dəfə hakimiyyətin onu “əfv” etməsi üçün Rusiyadakı səfir Polad Bülbüloğlunu elçi salsa da, “yox” cavabı aldığı deyilir. Abbas Abbasovun oğluna hakimiyyətdə münasibət həmişə normal olsa da, xahişlərə rəğmən, onu deputatlığa namizəd siyahısına salmayıblar. Xəbərlər var ki, mandat verilmədiyi üçün Aydın Abbasov yaxın gələcəkdə faktiki işsiz qalacaq.

A.Abbasov özü də dolayısı ilə təsdiq edib ki, faktiki heç bir işi qalmayıb: “Çin dilini və Çinin yeni iqtisadi modelini öyrənmək lap çoxdankı arzum olub. Eyni zamanda, alman dilini də öyrənməyə böyük həvəsim olub. Sadəcə, işlərim çox olduğundan arzularımı gerçəkləşdirə bilməmişəm. Qismət olsa, bu arzularımı həyata keçirməyə çalışacam”.

“Azərbaycanı tərk edib hansısa xarici ölkəyə üz tutmaq fikriniz ola bilərmi” sualına isə Aydın Abbasov belə cavab verib: “Xarici şirkətlər arzulayırlar ki, Azərbaycanda işləsinlər. Düşünürəm ki, sualınıza cavab verə bildim”.

Xəbərlərə görə isə A.Abbasov oğlunun Bakıdan köçməsində israr edir. Sabiq deputatın Moskvaya yox, Türkiyəyə köçəcəyi də iddialar sırasındadır. Çünki Abbasovların əsas biznesi Türkiyədən idarə olunur. Sabiq vitse-primyerin bir oğlu da çoxdandır ki, Türkiyədə yaşayır.



Deputatlıq müddəti başa çatan Etibar Hüseynov isə son açıqlamasında tikanlı və küskün danışıb. Bir neçə dəfə danışdıqlarına görə spiker Oqtay Əsədovdan sərt qınaqlar alan E. Hüseynov “qələminin qırılması” ilə heç cür barışa bilmir: “Əziz dostum və qardaşım Ülvi Quliyevin bir sıra obyektiv səbəblərdən namizədliyini deputatı olduğum 15 saylı dairədən irəli sürməsi planlarımı dəyişdi”, deyən E.Hüseynov mandat yarışından uzaqlaşdırılmasına qəribə izahat verib: “Etiraf edək ki, bugünkü kifayət qədər siyasiləşmiş cəmiyyətimizdə arxanda ciddi siyasi qüvvə və maliyyə rıçaqları olmadan bitərəf şəkildə seçkiyə qatılmaq və qalib gəlmək çox çətindir. Buna görə də qarşıdan gələn parlament seçkilərinə qatılmamaq qərarı verdim”. 2010-cu ildə İsa Qəmbərə alternativ kimi namizəd olan E.Hüseynov açıq etiraf edib ki, “arxasında ciddi siyasi qüvvə və maliyyə rıçaqları” daha yoxdur.

Seçkinin arxada qalmış ilk mərhələsinin daha bir mühüm nəticəsi nəqliyyat naziri Ziya Məmmədovun da parlamentdəki adamlarının “vurulması”dır. Məlumdur ki, nazirin qardaşı Elton Məmmədov seçkiyə qatılmadı və bunun da heç bir real izahatı verilmədi.

Nazirin qızının qayınatası, Salyanın keçmiş icra başçısı Əliağa Hüseynov isə yenidən namizədliyini irəli sürsə də, onun mandat alacağına ümid çox azdır. Çünki generalın dairəsində “namizədlər sıxlığı” yaradılıb və YAP-ın namizədinin daha çox şansı var. Qeyd edək ki, general mətbuatda “Salyan qruplaşması” adlandırılan qrupun seçkidə yeganə namizədi hesab olunur. Vaxtilə “ qüdrətli üçbucaq” adlandırılan qruplaşmada Rail Rzayev, Səfər Əbiyev və Ziya Məmmədov yer alırdı. Rail Rzayevin qətli rəhmətlik generalın iki qızını qardaşı oğlanlarına alan general Əliağa Hüseynovu zəiflətdi və o, Respublika Hərbi Komissarı postunu itirdi. Sonra sıra Səfər Əbiyevə çatdı. İndi isə belə görünür ki, növbədə Ziya Məmmədov və onun yaxın çevrəsidir. Yeri gəlmişkən, istiqlal.az saytı belə bir məlumat yayıb ki, Ziya Məmmədovun bacısı, “Tərəqqi” liseyinin direktoru Məhbubə Məmmədova tutduğu vəzifədən azad edilib. Maraqlıdır ki, nazirin qardaşının yaxın qohumları sayılan Rüstəmxanlılara da seçki prosesində ciddi təzyiqlər var ki, Vətəndaş Həmrəyliyi Partiyası bununla bağlı bəyanat da yayıb...

❑ **“Yeni Müsavat”**

# Füzulidə imza verənləri çörək pulu ilə təhdid edirlər




## Müxalifət seçki prosesinin qanun pozuntuları ilə keçdiyi qənaətindədir; Müsavat Partiyası sabah baş verənlərlə bağlı mətbuat konfransı keçirəcək...

**Noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə bağlı günlərlə davam edən imzatoplama kampaniyası oktyabrın 2-də saat 18:00-da başa çatdı. Bu ayın 9-na qədər iddiaçıların sənədlərinə baxılma və qeydə alınma prosesi həyata keçiriləcək.**

Oktyabrın 9-dan etibarən isə təbliğat-təşviqat kampaniyasına start veriləcək. Bu proses oktyabrın 31-də saat 8:00-da başa çatacaq. Artıq qeydə alınan namizədlərin sayı 900-ü ötüb.

Oktyabrın 3-də 33 saylı Xətai birinci seçki dairəsindən Müsavat başqanı Arif Hacılının namizədliyini DSK qeydə alıb.

Xatırladaq ki, bundan öncə Müsavatın daha 8 namizədi qeydə alınıb. Qeydə alınan namizədlər İsa Qəmbər (Yasamal), İsgəndər Həmidov (Kəlbəcər), Razim Əmiraslanlı (Cəbrayıl), Xasay Fərzulla (Masallı), Söhrab Əmrahov (Xaçmaz), Niyaz Nəsir (Xəzər), Valeh Hümmətoğlu və Mirzağa Axunddur (Salyan).

Demokratiya və Rifah Hərəkatının sədr müavini Vurğun Əyyubun namizədliyi 30 saylı Suraxanı birinci seçki dairəsindən qeydə alınıb. Həmin dairədən YAP hazırda deputat olan Sevinc Fətəliyevanın namizədliyini növbəti dəfə irəli sürüb.

Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı “Yeni Müsavat”a son durumla bağlı bunları dedi: “Hazırda Müsavatın 9 namizədi qeydə alınıb. 7 namizədimizin qeydə alınmasından imtina olunub. Qalan məsələlərlə bağlı proses davam edir. Qanun pozuntuları kifayət qədər çoxdur. Müsavat Partiyası bununla bağlı oktyabrın 6-da mətbuat konfransı keçirəcək. Həmin konfransda qanun pozuntuları mətbuat vasitəsilə geniş şəkildə yayılacaq”.

G.Aslanlı vətəndaşlara imzalarından imtina etmələri üçün olunan təzyiqlərdən də söz açdı: “Seçki Məcəlləsində yazılıb ki, seçici imzasından məhkəmə yolu ilə imtina edə bilər. Onun aldadılması, bu yolla ondan imza alınması yalnız məhkəmə yolu ilə sübut oluna bilər. DSK-lar imza vərəqələrini icra hakimiyyətinə ötürürlər. İcra hakimiyyətinin işçiləri isə kəndbəkənd, evbəev gəzərək, insanlardan imzalarından imtina etmələri ilə bağlı ərizələr toplayırlar. Bunun üçün onlara müxtəlif təzyiqlər edilir. Ən dəhşətlisi Füzulidə baş verən hadisədir. Füzuli camaatına verilən 17 manat çörək pulu ilə bağlı deyiblər ki, bu pulu kəsəcəyik, imzalarınızdan imtina edin”.

Müsavat funksioneri qanun pozuntuları şəklində keçən seçki kampaniyasından sonra seçkiləri boykot edib-etməyəcəkləri barədə də danışdı: “Namizədlərin qeydə alınması prosesi ayın 9-da bitir. Bu tarixdən sonra məsələləri müzakirə edib, ona uyğun qərar qəbul edəcəyik. Amma hələ ki boykot məsələsini ortaya atmağımıza ehtiyac yoxdur”.

G.Aslanlı namizədlərin maliyyə məsələlərinə və pullu efir vaxtına da toxundu: “Maliyyə məsələsində böyük problemlərimiz var. Müsavat Partiyası dövlət büdcəsindən maliyyələşmir. Bu vaxta qədər vahid seçki hesabı idi. Amma göründüyü kimi, hakimiyyət bizim 60 namizədimizi qeydə almayacaq. Hər bir namizəd özü üçün seçki hesabı açmaq məcburiyyətində qalacaq. Maliyyə məsələsini isə hər bir namizədin özü həll etməlidir. Başqa yol yoxdur. Pullu efir vaxtından istifadə edib-etməyəcəyimiz məsələsinə gəlincə, bu barədə ayın 9-dan sonra fikir bildirmək olar”.

“Azadlıq 2015" seçki blokundan 5 nəfərin namizədliyi qeydə alınıb. Bu barədə qurumun seçki qərargahının rəhbəri Bəybala Əbilov məlumat verdi: ”Seçkilərdə 72 namizədlə iştirak edirik. Onlardan 63-ü namizədlik üçün müraciət edə bilib. 59 iddiaçımız bank hesabı açıb. İmza vərəqəsini 58 nəfər götürüb. İmza vərəqələrini 58 nəfər qaytarıb. Hazırda onlardan 5 nəfər qeydiyyatdan keçib. Qalan namizədlərimiz barədə əlimizdə konkret məlumat yoxdur. Bu günlərdə son məlumat olacaq. Biz də qeydiyyatdan keçənlər barədə rəsmi qərar var".

“AĞ blok” seçki blokundan iki nəfər qeydiyyatdan keçə bilib. Blokun təsisçilərindən olan Tural Abbaslı bildirdi ki, digər namizədlər də imza vərəqələrini təqdim ediblər: “Seçkilərə 8 namizədlə qatılırdıq. Bu günə qədər iki namizədimiz Zəka Sahib Ağsudan, Xanlar Abbas isə Nərimanovdan qeydiyyata alınıb. Digər namizədlər, mən də daxil olmaqla, imza vərəqələrini oktyabrın 1-dən təqdim etmişik. 7 gün müddətində cavab verilməlidir. 550-dən çox imza təqdim etmişik. Minlərlə evdən bu qədər imza yığmışıq. İnanmıram ki, namizədlərin əksəriyyəti bu qədər imza yığsın. Bu proseslər yekunlaşandan sonra təbliğata start verəcəyik,şüarlar, plakatlar hazırlayacağıq”.

125-lər Siyasi Klubundan 17 nəfər qeydiyyata alınıb. Bu barədə qurumun sədri İlhamiyyə Rza məlumat verib. 125-lərdən indiyə qədər qeydiyyata alınmayan yeganə namizəd 95 saylı Tərtər seçki dairəsindən Tamilla Qulamidir. Xanım namizəd DSK-nın qərarından MSK-ya şikayət etsə də, iddiası təmin olunmayıb. T.Qulami qərardan apelyasiya şikayəti verib. Bu günlərdə şikayətə baxılacaq.

Qeyd edək ki, namizədlərin qeydiyyat prosesi yekunlaşandan sonra pullu efir vaxtına da start veriləcək. Pullu efir vaxtının bir saniyəsi 30-50 manat arasında dəyişir. Pulsuz efir vaxtı isə çox güman ki olmayacaq. Çünki 60-dan çox namizədi qeydə alınan YAP bundan imtina edib. Müxalif qurumlardan isə 60-dan çox namizədin olacağı gözlənilmir.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

# Putinin "Böyük səkkizliy"ə möhtəşəm qayıdış planı

**Rusiyanın sentyabrın 30-da başlayan Suriya əməliyyatının gerçək hədəfləri yavaş-yavaş üzə çıxır. Rus qırıcılarının aviazərbələrinin müstəsna olaraq Bəşər Əsəd rejiminə müxalif olan mötədil qüvvələrin mövqelərinə, arada da İŞİD-çilərə endirilməsi göstərir ki, Kremlin başlıca hədəfi qürub dövrünə girmiş Suriya rejimini (Əsəd rejimi ilə qarışdırmamalı) xilas edib, ABŞ başda olmaqla Qərbi, Türkiyəni fakt qarşısında qoymaq, özünü Amerikaya bərabər fövqəlgüc kimi təsdiqləməkdir.**




## Kritik Antalya sammiti - Bakı üçün də mühüm gözlənti var

### Rusiya Türkiyədə ya təklənəcək, ya da güclənəcək; Azərbaycan prezidentinin də qatılacağı gözlənilən "G20" zirvəsində Ərdoğanla Putin yenidən bir araya gələcək; Suriyaya dair bazarlıqda Moskva Ankara və Qərblə anlaşa biləcəkmi?..

Rusiya rəsmiləri nə qədər bəyan eləsələr ki, Suriyaya müdaxilə sırf terrorizmlə mübarizə ilə bağlıdır və hətta "rusiyalıları terrordan qorumaq niyyəti güdür" (Dmitri Medvedyev), artıq aydındır ki, bu kimi bəyanatlar əsas niyyəti kamifulyaj eləmək məqsədi ilə verilir. Əsas hədəf isə odur ki, Bəşər Əsədin ABŞ və Türkiyə tərəfindən himayə edilən qorxulu rəqibləri sıradan çıxdıqdan sonra Rusiya Suriya məsələsində söz sahibinə çevrilərək və Moskva Qərblə böyük bazarlıqda öz maraqları naminə istəsə Əsədi "xərcləyə" də bilər. Təki onun derjava (imperiya) imici hamı tərəfindən qəbul edilsin.

***

Bəs özünü supergüc qismində təsdiqləmək Moskvaya ilk növbədə nə üçün lazımdır? Birinci ona görə ki, dünyada SSRİ kimi əsas söz sahibliyini, dünya siyasətində qütblüyü özünə qaytarmaqdan ötrü.

İkincisi, Rusiyaya qarşı beynəlxalq sanksiyaların effekt verməsdiyini, Rusiyanı təkləmək və izolyasiya eləmək planının puç olduğunu nümayiş etdirib ABŞ üzərində mənəvi qələbəsini elan eləmək üçün.

Üçüncüsü, iqtisadi durumu ağırlaşmaqda olan rusiyalıların diqqətini xaricdəki "hərbi qələbələrə" yönəltməkdən ötrü.

Dördüncüsü, Yaxın Şərqdə, Güney Qafqazda, digər strateji əhəmiyyətli bölgələrdə, ələlxüsus Ukraynada, Donbas məsələsində Qərb qarşısında daha əlverişli mövqelərə çıxmaq, möhkəmlənmək üçün.

Beşincisi, Krımın işğalını həmişəlik unutdurmaq və dünya gündəmindən birdəfəlik çıxarmaq, yeni Krımların işğalına zəmin yaradacaq "kart-blanş"lar əldə eləməkdən ötrü.

Altıncısı, enerji (qaz tranziti) məsələsində son iki ildə üzləşdiyi əngəlləri aradan qaldırmağa bəs edəcək şəraiti yetişdirmək üçün.

Nəhayət, qovulduğu "Böyük səkkizlər" klubuna möhtəşəm qayıdışdan ötrü.

***

Rusiya ondan ötrü qürur məsələsi olan "G8"dəki təmsilçilikdən ötən il qovulmasını hələ də həzm edə bilmir və sadalanan səbəblər arasında, böyük ehtimalla, bu məsələ öncül yerlərdən birində dayanır. Kreml, heç şübhəsiz, qayıdışı möhtəşəm eləmək istəyir. Ancaq "Böyük yeddilər"in (Rusiyasız) zirvə toplantısından qabaq Türkiyənin ev sahibliyi ilə Antalyada gələn ay "Böyük iyirmilər"in sammiti keçiriləcək.

Məsələ də ondadır ki, Putin "G8"ə kimi hələ "G20" sınağından keçməlidir. Çünki hazırda ABŞ başda olmaqla, "G7"yə daxil olan aparıcı dövlətlərin hamısı "G20"də də təmsil olunub. Yada salaq ki, "G20"lərin bundan öncəki, ötən ilki Avstraliya sammitində Rusiya lideri Vladimir Putin Krım məsələsinə görə təklənmiş, hətta bufetdə tək-tənha qalmışdı. Məhz bu səbəbdən Putin sammiti yarımçıq tərk eləmişdi.

Putin, əlbəttə ki, bu rüsvayçılığın təkrarlanmasını arzulamır. Əksinə, belə görünür, Suriyadakı tarixi uğur hesabına Türkiyə sammitinə güclü mövqe ilə qatılmağı planlaşdırır. Bunun ardınca isə Putinin planlarına görə, "G8"ə böyük qayıdış reallaşmalıdır. Suriya əməliyyatları sözsüz ki, həm də buna hesablanıb. Hərçənd, əməliyyat başlayan kimi 7 ölkənin liderləri - hansı ölkələrdən ki, 6-sı "Böyük iyirmiliy"ə daxildir (ABŞ, Fransa, Türkiyə, Böyük Britaniya, Almaniya və Səudiyyə Ərəbistanı) Rusiyaya qarşı birgə sərt etiraz bəyanatı qəbul ediblər.

Ardınca Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ayrıca avizərbələrlə bağlı Rusiyaya açıq etirazını bildirib. "əl-Cəzirə" telekanalına müsahibəsində Ərdoğan sərt tonda deyib ki, Rusiyanın Suriyadakı hərəkətlərini Putinlə müzakirə edəcək.

Sitat: "Mən Suriyadakı situasiyanı müzakirə eləmək üçün mütləq onunla görüşəcəyəm və öz narahatlığımı ona çatdıracağam. Rusiya İŞİD-ə qarşı hərəkətə keçəcəyi barədə məlumat verdiyini bildirsə də, ancaq Əsəd rejiminə qarşı mübarizə aparan müxalif qüvvələrə qarşı əməliyyatlar aparacağını bildirməmişdi. Bu, təəssüf doğurur. Çünki regionda əziyyəti çəkən bizik. Rusiyanın Suriya ilə sərhədi yoxdur. Bizimsə 911 kilometrlik sərhədimiz var. Bundan narahatam. 2 milyon insan bizə gəldi, Rusiyaya yox. Nə üçün belə müdaxiləyə ehtiyac duydu? Biz dost ölkələriksə, mən ondan tələb edəcəyəm ki, Rusiyanın Suriyadakı davranışını bir daha nəzərdən keçirsin. Putinlə daha əvvəl Moskvada keçirdiyim görüşdə danışılanları və bundan sonra gözlənilənləri müzakirə edəcəyik. Bu məsələdəki narahatlığımı xüsusi vurğulayacağam, məyus olduğumu bildirəcəyəm".

***

Onu da qeyd edək ki, bəzi təhlilçilərə görə, Rusiyanın Suriyadakı hərbi əməliyyatları nəticəsində Suriya kürdləri güclənə bilər ki, bu da indiki məqamda Türkiyə üçün əsl təhlükədir. Bu barədə axar.az-a danışan politoloq Zərdüşt Əlizadə Rusiyanın Suriya siyasətinin arxasında duran Türkiyə ilə bağlı bəzi məqamların üstünü açıb: "Rusiya bir növ Yaxın Şərqə qayıtmağa çalışır. Kreml keçmiş təsir dairəsini bərpa etməkdən ötrü ən münasib fürsəti dəyərləndirir. Əsədi dəstəkləyən Moskvanın əsas hədəfi Azad Suriya Ordusudur (ASO). Bu işdə İraq və İranla müttəfiq olan Rusiyanın Suriyadakı hərbi əməliyyatları Türkiyə dövlətinin əsaslarını sarsıda bilməyəcək. Ancaq çox önəmli bir məqam var ki, Suriya kürdlərinin silah əldə etməsi və ordu yaratması Türkiyə üçün əsl təhlükədir. Çünki silahlı İraq, Suriya kürdləri və PKK birləşib, Türkiyəyə böyük təhdid yarada bilərlər".

Ərdoğan, təbii ki, bu və başqa aktual məsələləri Putinlə Antalya sammitində tet-a-tet danışmağı nəzərdə tutur. Bu tədbirin favoriti Türkiyə olmaqla yanaşı, öz arxasında o, sözsüz ki, Rusiyaya qarşı böyük güclərin dəstəyini də hiss edəcək.

Bəs Ankara-Moskva anlaşması baş tutacaqmı? Hələlik söyləmək çətindir, çünki Kremlin Suriya avantürasının nə ilə bitəcəyi dəqiq deyil. Bir şey dəqiqidir ki, Putini yenə gərgin müzakirələr gözləyir. O, sammitdə ya yenə təklənəcək, ya da ondan güclənmiş çıxacaq. Kreml başçısının xüsusən də Ərdoğanla müzakirələri regionun, Azərbaycanın taleyi baxımından həlledici əhəmiyyət kəsb edə bilər.

***

Xatırladaq ki, "G20" sammitinin iştirakçıları aşağıdakı dövlətlərdir: Avstraliya, Argentina, Braziliya, Böyük Britaniya, Almaniya, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, ABŞ, Türkiyə, Fransa, Cənubi Koreya, CAR, Yaponiya və Avropa Birliyi. Onların da mütləq əksəriyyəti, göründüyü kimi, Rusiya ilə isti münasibətlərdə deyil.

Beləliklə, zənn eləmək olar ki, Antalyada Putini həm ikitərəfli (Türkiyə), həm də çoxtərəfli formatda gərgin müzakirələr, hətta sürprizlər gözləyir. Barak Obama başda olmaqla dünya liderlərinin iştirakı ilə keçəcək bu müzakirələrin yekunu ilə bağlı gözləntilərdən isə təbii ki, Azərbaycana, bölgəmizə də "pay" düşəcək.

Yeri gəlmişkən, qaydaya əsasən, "G20"yə ev sahibliyi edən dövlət bu quruma üzv olmayan bir ölkəni qonaq qismində sammitə dəvət edə bilər. Bəllidir ki, Türkiyə Azərbaycanı seçib. Prezident İlham Əliyevin belə yüksək səviyyəli sammitdə hətta qonaq statusunda iştirakının özü isə gözləntilərə əlavə siyasi rənglər qata bilər. Hansı rəngləri? Bunu, yəqin ki, zamanında biləcəyik.

❑ **Analitik xidmət**

# Hər millət taleyini özü yazır...



**Hüseynbala SƏLİMOV**

**Almaniyanın birləşməsindən düz 25 il ötdü. Adam indi hətta inana da bilmir ki, bu ölkə nə vaxtsa parçalanmış olub... Düzdür, ortodoks solçular hələ də bu mövqedədirlər ki, Qərb ilə Şərq arasındakı fərqlər silinməyib, Şərqi Almaniyada yaşayanlar hələ də özlərini qərblilərə bərabər tuta bilmirlər. Gəl, bu, bir o qədər də geniş yayılmış fikir deyil - Almaniya Almaniyadır, özünün iqtisadi gücü ilə dünyanı heyrətləndirən bir ölkədir...**

Adam böyük millətləri araşdırmağa çalışır ki, bəlkə onların göstərdiyi möcüzənin təfərrüatlarını tam şəkildə olmasa da, qismən öyrənə və tətbiq edə bilsin...

Amma alnırmı? Təəssüf ki, yox. Bilirsiniz, insan da, millət də gərək bir az iddialı olsun. İnsan iddialı deyilsə, nəyəsə iddia etmirsə, çətin ki, ondan bir şey alınsın. Böyük sərkərdələr deyirdi ki, gərək general olmağı arzu edəsən ki, heç olmasa, yaxşı əsgər ola biləsən...

Millət də belədi. Millət iddialı olanda nəyəsə qadir olur. Almanlar həmişə iddialı millət olublar. Həmişə dünyanın mənzərisini dəyişməyə cəhd ediblər və son nəticə etibarilə buna nail də olublar. Düzdür, bu yolda iki dünya müharibəsindən keçmək lazım gəlib, amma nə etmək olar? Millətlər də elə insanlar kimidir - iddialılar bir az dalaşqan olur...

İndiki almanlar millətçi çağırışlardan əsasən ehtiyat edirlər. Ona görə ki, belə çağırışların o biri üzünü də görüblər. Məhz bu səbəbdən də deyirlər ki, biz heç bir halda dünya işlərinə qarşımaq istəmirik, bizim heç bir missiyamız-filanımız yoxdur və s. və i. Amma həqiqətdə belədirmi? Güman etmirik. Ona görə ki, Almaniya dünya işlərilə indi Avropanı özünə sipər edərək məşğul olur və heç bir halda demək olmaz ki, bu ölkə dünya siyasətinin periferiyasındadır.

Niyə belə olur? Almaniyanın qüdrətinin açarı nədədir?..

F.Nitşenin adı bədnam olub. Amma ondan başqa A.Şopenhauer də olub, digər filosoflar da olub. Alman filosoflarının yazılarından yadımda qalan tək bir söz var: İRADƏ... Onlar bunu daha hansı kontekslərdə işlətmirdilər?

Biri hakimiyyət iradəsi deyirdi, o biri dünya iradəsindən bəhs edirdi... Deməli ki, almanları irəli aparan yalnız bu oldu, bir qədər yanlışlıq olardı...

Əslində boğazdan yuxarı deyilmiş fikirlər, sözlər bütün millətlərdə var... Amma heç də bütün millətlər almanlar kimi deyillər. Üç azərbaycanlı bir yerə düşəndə və ortalıqda bir araq şüşəsi də olanda deyirsən ki, daha bizdən qüdrətli millət dünyada yoxdur! Amma əmələ gələndə ortalıqda bir şey yoxdur...

Həyatımız boyu təbii ki, hamımız çox adamlar görmüşük. Mənim bir almanla söhbətim hələ də yadımdan çıxmır...

O, dedi ki, biz bölünmüşük, mən də qayıtdım ki, bəs, elə biz də bölünmüşük. Söhbət gəlib birləşməyin üstünə çıxdı...

Dedim ki, biz 150 ildən artıqdır ki, bölünmüşük və hələ də məlum deyil ki, nə vaxt birləşəcəyik?..

Alman o vaxt bir söz dedi. Dedi ki, yox, biz birləşəcəyik, özü də tezliklə birləşəcəyik! İndiki Almaniyaya baxıb düşünürəm ki, dedilər və birləşdilər!..

Əvvəldə iddialı olmaqdan bir-iki söz yazdım. Bizdə məhz iddia çatmır və bu, niyə belədir, doğrusu, mən bunun səbəbini bilmirəm...

Bəzən mənə elə gəlir ki, millətlər də cürbəcür olur. Məsələn, düşünürəm ki, biz "mətbəx milləti"yik... Mənim bu "bənzətmə"mi üzrlü sayın... Bəli, dadlı yeməyi, özü də bahalı qablarda yeməyi, mebeli - filanı, qərəz, məişəti həddindən artıq sevirik. Bütün ömrümüz boyu məişət problemlərinin əlindən yaxamızı qurtara bilmirik, məişət problemlərindən yuxarı qalxa bilmirk... Əvvəl özümüz üçün ev qururuq, sonra uşaqlarımız üçün bunu edirik, vaxt və imkan olanda hətta nəvələrimiz - nəticələrimiz üçün nəsə edirik...

Amma almanlar ayrı cür millətdir. Sovet vaxtı bir filmə baxmışdım. Bir alman kapitalisti haqda idi. Həmin alman oğluna zavodunu göstərərək deyirdi ki, bax, mən gündə cəmi on iki marka xərcləyirəm və bu, mənə bəs edir, bütün bu zavod isə Almaniya üçündür...

Doğrusu, hələ də bilmirəm, necə olmuşdu ki, sovetlər o filmi buraxmışdılar? Axı bizim təsəvvürümüzdə kapitalist bütün gün yeyib-içməklə, eyşi-işrətlə və əyləncələrlə məşğul olan adama deyirdilər...

Bəlkə də bəla da elə bizim təsəvvürlərimizdədir. Guya indi özümüz də kapitalizmdə yaşayırıq. Amma kapitalist deyəndə ağlımıza gələn ilk fikir bu olur ki, yəqin ki, bu adam böyük vəzifədə işləyir, çünki qazanmağın bir əsas yolunu bilirik - o da vəzifədir...



# "Marşal Bağramyan" poliqonunda "Sarsılmaz qardaşlıq"

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Rusiyanın Ermənistandakı səfiri İvan Volıkin "Qarabağda müharibə olmayacaq" deyəndən iki gün sonra Ermənistanın müdafiə naziri Azərbaycana gəldi. Seyran Ohanyanın Qarabağa neçənci səfəri idi, dəqiq deyil, ancaq onun məhz rus səfirin Qarabağ müharibəsini istisna etməsindən sonra Qarabağdakı terror yuvalarına baş çəkməsi diqqətçəkəndir. Məntiq onu deyir ki, Ohanyanı cəsarətləndirən rus diplomatının dedikləridir. Yəni "qorxmayın, arxanızda durmuşuq, istədiyinizi edin".**

Deyəsən, İvan Volıkin vaxtilə Qribayedovun oynadığı "rus canişini" rolunu oynayır bölgədə. Bundan bir ay əvvəl də rus səfir Ohanyanla görüşmüşdü. Görüşün "nəticəsini" gördük, erməni diversiya-təxribat qrupu mövqelərimizə davamlı həmlə etdi, ağır artilleriya işə salındı, mülki əhalimiz də hədəfə alındı, özü də Ermənistanla sərhəddə. Rusiyanı prosesə qoşmaq üçün hüquqi zəmin yaratmaq üçün.

Azərbaycanın üstəlik, Türkiyə ilə birgə həyata keçirilən möhtəşəm hərbi layihələr Ermənistana Rusiyadan bəhrələnmək üçün əlavə imkanlar verir. Moskva Azərbaycana milyardların qarşılığında silah satdığı halda, işğalçı ölkəyə hər şeyi havayı verir. Adını da "tərəfsiz", "vasitəçi" qoyub...

Bu günlərdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) Ermənistanın "Marşal Bağramyan" poliqonunda "Sarsılmaz qardaşlıq-2015" hərbi təlimlərini keçirir. Əslində bu, Rusiyanın hazırladığı böyük bir planın tərkib hissəsidir. Qurumun baş katibi Nikolay Bordyuja deyib ki, KTMT qüvvələri "dünyanın "qaynar nöqtə"lərində mümkün sülhməramlı əməliyyatlara hazır olmalıdırlar". Biz yaxşı bilirik ki, "qaynar nöqtə" deyiləndə hara nəzərdə tutulur. Təbii ki, söhbət ilk növbədə Qarabağdan gedir.

Rəsmi məlumata görə, KTMT Kollektiv Sülhməramlı Qüvvələri təlim zamanı Qafqaz regionunda sülhün təmin edilməsi üzrə şərti əməliyyatlar keçirirlər. Rusiya sülhməramlılarının Gürcüstandakı missiyasının oynadığı rolu 2008-ci ildə bütün dünya şahidlik etdi. Əslində şimal qonşumuzun belə rolları çox olub. "Sabitlik yaratmaq" funksiyasını üzərinə götürmüş 366-cı motoatıcı alayın Xocalıda törətdiklərini xatırlamaq bəs edər. Müasir günümüzdə isə acı Ukrayna nümunəsi var. Suriyadakı rus bombardmançıları da ora sülh yaratmaq niyyətilə getməyib təbii ki.

Bordyujanın dedikləri bir ay öncə Rusiyanın Cənubi Qafqazla bağlı planlarının olması barədə beynəlxalq mediada tirajlanın xəbərlərin təsdiqidir. Təbii ki, söhbət Gürcüstan və Azərbaycanın tam nəzarət altına alınmasından gedir. Sadəcə, Moskva "sülhməramlıları"nın hərəkətə keçməsi üçün fürsət gözləyir. Rusiya ən müxtəlif adlar altında Azərbaycana ordu yeritmək istəyir. Necə ki, ötən əsrdə "Türkiyəyə yardıma tələsdiyini" deyən rus əsgərləri yalnız 70 ildən sonra Azərbaycandan çıxdılar...

Bu dəfə də bəhanələr uydura bilərlər: Qarabağda "sülhü təmin etmək" adı altında ökəmizə soxula, yaxud Suriyadakı İŞİD-in məhv edilməsi üçün Azərbaycanda baza qurmaq istəyinə düşə bilərlər. Rəsmi Bakı hələ ki, şimal təhdidlərinə direniş göstərir. Ancaq Elmar Məmmədyarovun "heç vaxt heç vaxt demə" fikri və Qarabağın azadlığının qarşılığında güzəştləri mümkün sayması vəziyyətin dramatikliyindən xəbər verir.

Kreml açıq təhdidə keçib, Bakının Qərblə münasibətlərindəki ziddiyyətlər onun işinə yarayır, üstəgəl, erməni faktoru və Ermənistanla hərbi müqavilə amili var. "Rusiya sülhməramlıları"nın Qarabağda yerləşdirildiyi gün Qarabağın qaytarılması ümidini dəfn etməli olacağıq...

Ermənistanın Baqramyan poliqonundakı təlimlərdə diqqətimizi çəkən bir məqam oldu. Rusiyanın Samara vilayətindən 1500 km-dən çox məsafədəki Ermənistana 100 hərbçi özü ilə birlikdə 82 mm kalibrli minaatanlar və atıcı silahlar göndərib. Azərbaycanın Müdafiə Nazirliyinin cəbhə xəbərlərində bir məqamı xatırladım: Ermənistan tərəfdən 82 mm kalibrli minaatanlar və atıcı silahlardan mövqelərimizin atəşə tutulmasını.Yəni yenə atan kazaklardır?

Rusiyanın İravandakı səfiri onu da deyib ki, Qarabağ münaqişəsini hərbi yol ilə həll etmək mümkün deyil, məsələ danışıqlar masası arxasında və yalnız sülh yolu ilə həll edilə bilər. Ölkəsi uzaq Suriyadakı İŞİD-I təhlükə sayır, üstünə qırıcı-bombardmançılar göndərir, Bakının 385 km-liyindəki Xankəndi şəhərini 24 ildir işğalda saxlayan terroçu rejimlə isə danışıqların alternativini görmür. Hansı ki, İŞİD-in bu gün törətdiklərinin eynisini İŞİD-dən də qorxulu erməni terrorçuları 1992-ci ildə Xocalıda törədib.



# Bu gün Türkiyə Baş Qərargah rəisi Bakıya gəlir

## Ekspert: "O, iki ciddi məsələyə görə Azərbaycana təşrif buyurur..."

**Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 5-də - bu gün Azərbaycana rəsmi səfərə gələcək. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən xəbərə görə, səfər çərçivəsində qonağın Müdafiə Nazirliyində görüşləri planlaşdırılır. Səfər oktyabrın 7-dək davam edəcək. Bu Hulusi Akarın Baş Qərargah rəisi kimi ölkə xaricinə ilk səfəridir və bu səfəri o, Azərbaycana edir.**

Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri, politoloq Natiq Miri səfərin məqsədi və önəmindən danışarkən bildirdi ki, Baş Qərargah rəisinin ilk xarici səfərinin Azərbaycan olması regiondakı Azərbaycan-Türkiyə birliyinə qarşı olan dövlətlərə, qlobal güclərə bir mesajdır: "Bu, bir mesajdır ki, Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə strateji xarakter daşıyır və bu dövlətlərin maraqlarının əksəriyyəti eynidir. Bu, birinci verilən ən ciddi mesajdır. Başqa tərəfdən, təbii ki, bu səfərin hansı zamanda baş verdiyinə diqqət etmək lazımdır. Bu səfər o zamanda baş verir ki, Yaxın Şərqdə hərbi, geosiyasi vəziyyət Rusiyanın Suriyaya hərbi müdaxiləsindən sonra daha da gərginləşib. Rusiya Türkiyənin sərhədində olan Suriya ərazilərini bombalamağa başlayandan cəmi bir həftə sonra Türkiyə ordusunun Baş Qərargah rəisinin Azərbaycana gəlişi ortada müzakirə ediləcək çox ciddi məsələlərin olmasından xəbər verir. Yaxın Şərq savaşı çərçivəsində ABŞ və Rusiya məhz regional aktyorları öz ətrafında görmək istəyir. Bununla da daha güclü olduqları görüntüsünü yaratmaqla bərabər, həqiqi güc mərkəzini formalaşdırmaq istəyi ortada var. Artıq Rusiyadan Azərbaycana qarşı nəinki təkliflər, hətta tələblər irəli sürülür. O mənada ki, Azərbaycan da ümumi düşmən olan, hətta Azərbaycanın özünün də hədəfində olduğu İŞİD terroruna qarşı elan edilmiş müharibədə Rusiyanın təşkil etdiyi koalisiyada iştirak etməlidir. Hələlik bu, təklif xarakterli olsa da, verilən bəyanatların tonundan hiss olunur ki, artıq Azərbaycana təklif tələb formasına keçir. Məsələ burasındadır ki, bu məsələnin kökündə təkcə İŞİD-lə mübarizə məsələsi dayanmır, Rusiyanın geosiyasi maraqlarının təmin olunması durur. Çünki Rusiyanın başladığı hərbi əməliyyatlardan da bəlli oldu ki, əslində Moskva İŞİD-lə birmənalı mübarizə aparmaq və onu çökdürmək niyyətində deyil. Rusiya Suriyada mövcud olan türkmən güc mərkəzlərini və Əsəd rejiminə qarşı dünyanın qəbul etdiyi sivil müxalifəti vurmaqla məşğuldur. Bu da onu göstərir ki, Rusiyanın Türkiyəyə, türk dünyasına da qarşı məkrli planları mövcuddur. Rusiya Azərbaycanı da bu planlarını həyata keçirmək prosesinə cəlb etmək istəyir. Belə bir durumda Türkiyə silahlı qüvvələrinin Baş Qərargah rəisinin Azərbaycana gəlişi çox əhəmiyyətli səfər kimi dəyərləndirilməlidir".

Ekspert hesab edir ki, yuxarıda qeyd olunan məsələ Azərbaycan rəhbərliyi ilə müzakirə olunacaq. Yaranmış vəziyyətdə Ankara, yəqin ki, Türkiyə ilə Azərbaycanın koordinə olunan bir fəaliyyət proqramının ortaya çıxmasına çalışacaq: "Bu gün Azərbaycan Türkiyənin olduğu güc mərkəzinin yanında yer almalıdır. Rusiyanın təşkil etdiyi koalisiya əsasən İran, "Hizbullah" təşkilatından və Bəşər Əsəd rejimindən ibarətdir. Türkiyə Azərbaycanın belə bir koalisiyada hər hansı şəkildə yer almasını haqlı olaraq istəmir. Hulusi Akar da, çox güman ki, həm də bu istəyi Azərbaycan rəhbərliyinin nəzərinə çatdırmaq üçün gəlir. Məncə, Azərbaycan hakimiyyətinin də yaranmış geosiyasi, geohərbi durumda Türkiyə ordusunun Baş Qərargah rəisi ilə məsləhətləşmələrə ehtiyacı yaranıb. Baş Qərargah rəisinin indiki zamanda Azərbaycana gəlişi hər iki tərəf üçün çox əhəmiyyətli hadisədir. Son vaxtlar Dağlıq Qarabağ cəbhəsində gərgin vəziyyətin yaranmasını da nəzərə alsaq, Hulusi Akarın Bakıya gəlişində Qarabağ cəbhəsində hərbi əməliyyatlar məsələsinin də müzakirə mövzularında olacağı istisna edilməməlidir. Bu baxımdan da Baş Qərargah rəisinin səfəri strateji önəm daşıyır".



❑ Etibar SEYİDAĞA

# Rusiya Azərbaycanda hərbi baza yaratmaqdan imtina etdi

**Rusiya Azərbaycanın Qəbələ rayonundakı "Daryal" radiolokasiya stansiyasının (RLS) yerində "Voronej" tipli yeni RLS tikməyəcək. Rusiya xaricdə bu tipli sistemlər yaratmağı ümumiyyətlə məqsədəuyğun saymır.**

Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, bu barədə Rusiya Hava-Kosmik Qüvvələrinin xüsusi təyinatlı 15-ci ordusunun Baş Qərargah rəisi, general-mayor Anatoli Nesteçuk məlumat verib.

"Hesab edirəm ki, yerli sistemlər Rusiya ərazisində yerləşməli və müvafiq vəzifələrin yerinə yetirilməsinə zəmanət verməlidirlər" - deyə general Nesteçuk RSN radiosunda efirə gedən "Baş qərargah" verilişinin aparıcısının Rusiyanın Qəbələdə "Voronej" tipli RLS tikib-tikməyəcəyi barədəki sualını cavablandırarkən bildirib.

General xatırladıb ki, bu gün Rusiya hüdudlarından kənarda Qazaxıstanda "Dnepr" RLS, Belarusda isə "Volqa" RLS fəaliyyət göstərir. "Lakin bu iki strateji istiqamətdə yerləşən stansiyaları əvəzləmək üçün də kifayət qədər geniş imkanlarımız var", - deyə general əlavə edib.

Yada salaq ki, "Voronej" RLS Rusiyanın üfüqüstü RLS sistemidir. Bu sistem raket hücumu barədə ən yüksək xəbərdarlıq sistemidir. "Voronej" RLS ballisitik, kosmik və aerodinamik obyektləri, o cümlədən ballisitik və qanadlı raketləri aşkarlamaq gücündədir.

Onu da bildirək ki, Rusiyanın bu ölkənin tərk etdiyi Qəbələ RLS-in yerində yeni hərbi baza tikəcəyi barədəki informasiyanı Rusiya Müdafiə Nazirliyinin əsas informasiya ruporu olan "Zvezda" telekanalı bir müddət öncə yaymışdı. Bu informasiya Azərbaycanda birmənalı qarşılanmamışdı.



Qəbələdəki "Daryal" RLS-in icarə müddəti 2012-ci ilin dekabrında başa çatıb. Rusiya ilə Azərbaycan arasında bu stansiyanın icarə müddətinin uzadılmasına dair uzun müddət danışıqlar aparılsa da tərəflər razılığa gələ bilməmişdilər. Nəticədə Moskva Qəbələ RLS-i bağlamağa qərar vermişdi.

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

**“Baxış bucağı”**

**Birinci Qarabağ savaşı torpaqlarımızın işğalı və böyük itkilərimizlə tarixə düşsə də, qarşıda bizi növbəti, bəlkə də həlledici döyüşün gözlədiyini çoxları bilir. Hətta ölkə xaricindəki ekspertlər, diplomatlar və institutlar da Qarabağ müharibəsini qaçılmaz hesab edir. Qarabağ müharibəsi əlilləri və müharibə veteranları da son döyüşün intizarında olan kateqoriyaların sırasında öncül yerdədir. Lakin ürəyi böyük problemlərin həll edilməsi gününün intizarı ilə döyünən bu insanlar, çox təəssüf ki, bəzən məişət problemlərinin əlində aciz qalır.**

# “Qaçqınkom” qarşısında mitinq keçirilməsinə ehtiyac var”

## Etimad Əsədov: “İcra hakimiyyətləri var ki, nə əlil, nə şəhid ailələrini qəbul edir, çox ögey münasibət bəsləyirlər...”

Hansı ki, hər birimiz onların istənilən problemlərinin həllində yardımçı olmağa, ağrıyan yarasına məlhəm sarımağa borcluyuq. Qarabağ Qaziləri Cəmiyyətinin sədri Etimad Əsədovu da incidən təkcə bəzi məmurların deyil, elə cəmiyyətin də laqeyd münasibətidir. Müharibə iştirakçıları üçün görülən işlər də az deyil, onlardan da danışdı. Ancaq illərdir demədikləri acı həqiqətləri də açıqladı, mesajlarını verdi...

***- Etimad bəy, parlament seçkilərinə qatılmadınız. Səbəb nə oldu?***

- Əvvəlcədən fikrim olmadı. Səbəbinə gəldikdə, açığı, inamsızlıqdan. Yəni seçkilərin demokratik, şəffaf keçiriləcəyinə inamım az idi. Bundan əvvəl iki dəfə seçkiyə qatılmışam, Ağdam və Nizami rayonundan.

***- Amma Qarabağ qaziləri arasında namizədlər var...***

- Bir nəfər Qazilər Birliyinin üzvü namizəddir. Amma döyüşçülərdən namizədliyini verən çoxdur. Hətta Milli Qəhrəman dostumuz da namizədliyini irəli sürüb. Ən azı 3-4 nəfəri tanıyıram.

***- Yəqin ki, keçmiş döyüşçülərin parlamentdə təmsilçisinin olmasını istəyirsiniz...***

- Əlbəttə. Çox istərdim ki, Qarabağ müharibəsi iştirakçısı olan bir normal şəxs parlamentə mandat qazansın və Qarabağ müharibəsi veteranlarını, qazilərini, yaxud şəhid ailələrini təmsil etsin, bu insanların problemlərini orda qaldırsın. Müharibə insanları adından danışmaq haqqı olan təmsilçinin parlamentə düşməsi çox yaxşı olardı.

***- Bir neçə gün əvvəl Qarabağ qazilərinin aksiyalara başlayacağı xəbəri yayıldı. Məsələ gündəmdədirmi?***

- Bizim bir yaxşı dostumuz, ziyalı qardaşımız var - Məğrub Bədəlsoy. O, həmişə müharibə əlilləri, şəhid ailələrinin problemlərinin həllinə öz köməyini göstərir. O müharibə əlillərinin problermləri ilə bağlı mitinq keçirtmək istəyində olub və Bakı şəhər İcra Hakimiyyətinə də müraciət edib. Ancaq o müraciəti edən bizim cəmiyyətimiz deyil. Onun fikirlərinə hörmətlə yanaşıram, lakin seçki ərəfəsində belə bir tələblə mitinqlərin keçirilməsini doğru saymıram. Məğrub bəyin qaldırdığı problemlər mənə tanışdır. Biz o problemləri aidiyyəti qurumların rəhbərləri ilə görüşlərimizdə də qaldırırıq və həllinə çalışırıq. Son zamanlarda da xeyli sayda məsələlərin həllinə nail olmuşuq.

***- 2001-ci illə müqayisədə - söhbət o zaman qazilərin davamlı aksiyalar keçirməsindən gedir - keçmiş döyüşçülər indi nələrə, hansı üstünlüklərə nail olub?***

- O vaxtdan indiyə kimi xeyli zaman keçib. Düzdür, aksiyaların ardınca Əlillər Cəmiyyətinin fəaliyyətinə son verildi və bir durğunluq yaşandı. Ancaq son bir neçə ildə problemlərin həlli sahəsində xeyli dönüş yaranıb. Minik avtomobillərinin verilməsində çox ciddi dönüş var. Son bir ildə 1700 avtomobil verilib. Hansı ki, qabaqlar 5 ildə də bu qədər maşın verilmirdi.

Mənzil təminatında da xeyli irəliləyişlər var. Cənab prezidentin sərəncamı var ki, 2018-ə qədər bu insanlar tamamilə mənzillə təmin olunmalıdır. Pensiyalardakı artımlar da öz həllini tapıb. Qarabağda könüllü döyüşən insanlarımız var ki, onların pensiyalarında ciddi artımlar baş verib. Bu şəxslər hərbi xidmətdən artıq xidmət edənlərə bərabər tutulurlar və pensiyaları 300 manatdan 450 - 500 manata qədər qaldırılıb. Bütün kateqoriyalı müharibə əlillərinə prezident təqaüdlərində ciddi artım olub.

## “Ola bilsin, seçkidən sonra bir araya gəlib ordumuza “hücum” əmrinin verilməsi xahişi ilə prezidentə müraciət etdik”

***- Son vaxtlara qədər Qarabağ döyüşçülərinin müalicə olunmaq problemi daha çox narahatlıq doğururdu. Hazırda vəziyyət necədir?***

- Qazilərin müalicəsi, xəstəxanalarda yerləşdirilməsi, dərman preparatları ilə təmin olunmasında da xeyli işlər görülüb. Bu məsələlər daim nəzarətimizdədir. Belə ki, biz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində olmuşuq, şəxsən cənab nazir Səlim Müslümovla, Baş nazirin müavini Əli Əhmədovla görüşmüşük. Səhiyyə Nazirliyinin rəhbərliyi ilə kollektiv şəkildə bir neçə təşkilatların təmsilçiləri olaraq dəfələrlə görüşmüşük, əlillərin müalicə məsələlərini qaldırmışıq. Onların ağır cərrahiyyə əməliyyatlarının tam pulsuz həyata keçirilməsinə nail olmuşuq. Hal-hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində komissiya var və orada müharibə ilə bağlı bütün QHT-lər təmsil olunur, biz maşınların, mənzillərin payanmasında iştirak edirik. 10 gün bundan əvvəl Səlim müəllimlə görüşümüzdə bir məsələ qaldırdıq ki, 1-ci qrup əlil arabasına məhkum olunmuş, yaxud yataq xəstəsi olan insanlara təkrar maşınların verilməsi və onların himayəyə götürülməsi müsbət həllini tapsın. Həyat yoldaşları, yaxud ata-anaları onlara xidmət edir ki, onların da əziyyəti qiymətləndirilməlidir. Yaxın zamanlarda bu məsələ də həll ediləcək. Çünki nazir söz verib və həmin insanların siyahısını bizdən istəyib ki, məsələ həllini tapsın.

***- Bəs, sizi eşitməyən, dinləmək istəməyən qurumlar, məmurlar necə, varmı?***

- Əlbəttə. İcra hakimiyyətləri var ki, nə əlil, nə şəhid ailələrini qəbul etmirlər, çox ögey münasibət bəsləyirlər. Baxmayaraq ki, 1 il əvvəl biz Bakı meri Hacıbala Abutalıbovla görüşdük və ondan Bakıdakı icra hakimiyyətlərinin bizə qarşı soyuq münasibətinin aradan qaldırılmasını xahiş etmişdik. O da bizim iştirakımızla bütün icra hakimiyyətlərinə məktub hazırladı, tapşırıq verdi ki, həftənin, günün istənilən vaxtı şəhid ailələri, əlillər, müharibə ilə bağlı təşkilatların rəhbərləri ilə görüşlər keçirilsin, onların təkliflərinin əsasında bizə təkliflər verilsin. Amma bütün bunlara baxmayaraq, icra hakimiyyətlərinin soyuq münasibəti davam edir. Ümumiyyətlə, cəmiyyətimizdə müharibə insanlarına ögey münasibət var. Cənab prezidentin verdiyi sərəncamlar, fərmanlar ortadadır, dövlət səviyyəsində addımlar atılır. Prezidentin hər görüşdə “əlillərə, şəhid ailələrinə qayğı göstərilməlidir, bu, mənim tapşırığımdır” deməsinə rəğmən bir çox nazirliklər, bir çox qurumlar, əsasən də icra hakimiyyətləri ögey münasibətlərini davam etdirirlər. Bizim üçün ən ağır məsələ budur ki, cənab prezident qaçqınlar və əlillərlə görüşlərdə haqqımızda yüksək fikirlər söylədiyi halda, yenə də bəzi problemlər qalmaqda davam edir. Ən ağrılısı odur ki, bir ay bundan öncə baş nazirin müavini, Qaçqınlarla iş üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova müraciət etmişik ki, bizi qəbul etsin, ancaq heç bir cavab almamışıq. Qarabağ əlilləri və şəhid ailələrinin ən ağır problemlərindən biri “Qaçqınkom”la bağlıdır. Onlar bu qurumla bağlı bizə çoxsaylı müraciətlər edirlər. Belə ki, Bakı şəhərində və rayonlarda yaşayan müharibə əlilləri və şəhid ailələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, icra hakimiyyətləri tərəfindən mənzillə növbədənkənar təmin edilir. Amma nəzərə alsaq ki, bu insanlar arasında müharibə əlilləri və şəhid ailələri də var, məsələn, yataqxanalarda, uşaq bağçalarında iki ayağını itirmiş, əlil arabasına möhtac qalan adamlar da var, indiyəcən mənzil almayıb. Ailələr tanıyıram ki, iki qardaş hərəsi bir ayağını itirib, yataqxanalarda bir otaqda yaşayırlar, övladları böyüyüb, çox ağır durumdadırlar. Şəhid ailələri var ki, övladları ailə qurmaq yaşına çatıb, normal mənzilləri yoxdur. “Azərbaycan Bayrağı” ordeni almış, Azərbaycanın Milli Qəhrəmanı adına təqdim olunmuş Arif Əliyev bir otaqda 3 qız övladı böyüdüb. Özünün də dizdən yuxarı iki ayağı yoxdur, protezlərlə yatıb-durur. Dəfələrlə müraciət etmişik ki, növbədənkənar mənzillə təmin olunsun, lakin “Qaçqınkom” buna heç bir məhəl qoymur. On minlərlə evlər tikilib, qaçqınlara paylanıb. Bu qəbildən olan insanlar başqa qaçqın həmvətənlərimizdən fərqlənməlidirlər. Çünki onların hərəkət məhdudiyyəti var, özləri üçün iş qura, şərait yarada bilmirlər. Açığı, etiraf edək ki, bizim çoxlu qaçqınımız var ki, yaxşı iş qurub, evlər tikib, şərait qurublar. Amma əlsiz-ayaqsız müharibə əlilləri var ki, onlar növbədənkənar mənzillərlə təmin olunmalı olduğu halda “Qaçqınkom”, başda Əli müəllim olmaqla bu məsələyə dırnaqarası yanaşır, təəssüflər olsun ki, müraciətlərimizə də məhəl qoyulmur. Bu, çox böyük haqsızlıq, ədalətsizlikdir!



## “Cəmiyyətimizdə müharibə insanlarına ögey münasibət var”

***- Sözlərinizdən belə çıxmırmı ki, Qarabağ qazilərinin aksiya ünvanı “Qaçqınkom”un qarşısı ola bilər?***

- Allaha and olsun ki, “Qaçqınkom”un qarşısında bir mitinqin keçirilməsinə ehtiyac var. Ağır durumda yaşayan əlillərimizin və şəhid ailələrimizin problemlərinin həlli zəruri olduğu halda, nədənsə bu qurum məsələyə soyuq yanaşır, on illərdir ki, məsələlərin həllini yubadırlar. Nəzərə alsaq ki, başqa müharibə əlilləri başqa ünvanda yaşadıqları halda prezident sərəncamı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və icra hakimiyyətləri tərəfindən çox sürətlə mənzillə təmin olunurlar, amma yataqxanalarda məskunlaşan qaçqın əlillərimiz və şəhid ailələrimizin mənzillə təminatında çox ciddi problemlər var. Bu insanlar həm qaçqın, həm əlil, həm də şəhid ailələridir, onlar başqa qaçqın həmvətənlərimizdən fərqləndirilməlidirlər. Onlar növbədənkənar, özü də ürəyi istədikləri, yaxşı yerlərdə mənzillə təmin olunmalıdırlar! Düşünürəm ki, Əli müəllim bu məsələyə diqqət yetirsə, fərqinə varsa, bizimlə razılaşar ki, necə olur əli, ayağı salamat olan qaçqın, özünə normal şərait yarada bilən qaçqınla iki ayağını itirmiş “Azərbaycan bayrağı” olan döyüşçümüzə fərq qoyulmur, ikisi də mənzil növbəsini gözləyir? Bu, böyük haqsızlıqdır və bu məsələni həll etmək lazımdır.

***- Etimad bəy, siz Avropa Oyunlarından qabaq bir neçə təşkilatla birgə bəyan etmişdiniz ki, yarışlar başa çatandan sonra Ali Baş Komandana Qarabağın azad edilməsi üçün əmr verməklə bağlı müraciət edəcəksiniz. Məsələ gündəmdədir, yoxsa hansısa səbəblərdən məsələnin üstündən keçildi?***

- Yox, bu məsələ yenə gündəmdədir. Əslində “atəşkəs” adı altında müharibə davam edir, övladlarımız şəhid olur, itkilərimiz göz önündədir. ATƏT həmsədrlərinin uzun illərdir apardığı sülh danışıqlarının heç bir nəticəsi yoxdur və artıq dövlət yetkililəri də bunu etiraf edir. İndiyədək dünya tarixində hansısa ərazilərin sülh yolu ilə azad edilməsi baş verməyib. Nəzərə alsaq ki, ermənilər qarşılarına necə xəbis bir plan qoyublar, onlar tək bizə qarşı yox, qonşu Gürcüstana, qardaş Türkiyəyə qarşı da ərazi iddiaları irəli sürürlər. Biz nəzərə alsaq ki, hazırda ermənilərin sərgilədiyi mövqe heç vaxt Qarabağın işğaldan azad olunmasına gətirib çıxarmayacaq, o halda Azərbaycan Qarabağın azadlığı üçün konkret addım atmalıdır. Yaxın Şərqdə başda Amerika olmaqla xristian dövlətlərinin yeni xəritələr cızdığı, qardaş Türkiyə terror qarşı əməliyyatlara başladığı bir halda, Azərbaycan da öz əzəli torpaqlarını azad etmək, BMT-nin tanıdığı ərazi bütövlüyünü təmin etmək üçün konkret qərarlarını verəməlidir. Beynəlxalq hüquq bizim tərəfimizdə olduğu halda, heç kim bizə irad tuta bilməz. Sadəcə, Azərbaycan dövləti qəti addımını atmalıdır. Azərbaycan xalqının və ordusunun birliyi ilə torpaqlar işğaldan azad edilməldir.

Torpaqların ancaq və ancaq müharibə yolu ilə azad edilməsi mümkündür. Bir müddət öncə keçirdiyimiz tədbirdə bu bəyanatı bir daha səsləndirdik. Hazırda seçki prosesi gedir. Ola bilsin ki, seçkidən sonra müharibə ilə əlaqədar təşkilatlarla bir araya gəlib ordumuza “hücum” əmrinin verilməsi xahişi ilə cənab prezidentə müraciət etdik...

**❑ Elşad PAŞASOY**
**FOTO: “YM”**

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015



# Şef-redaktora qarşı dələduzluq araşdırılmamış qalıb

## Dələduzu təqaüddə olan hakim himayə edir?..

**Bu gün Azərbaycan Cinayət Məcəlləsində ən çox müraciət olunan maddə 178-ci maddədir - yəni dələduzluq. "Yeni Müsavat" ailəsinə daxil olan minval.az saytının şef-redaktoru Emil Mustafayevin başına gələnlər də bu maddənin təsiri altına düşür. Amma və lakin məhkəmələr prokurorluq orqanlarının vəsatətlərini rədd edib jurnalistin atasından aldatma yolu ilə 50 min manat alan Rauf Əlihüseyn oğlu Fərəcovun azadlıqda gəzib istintaq orqanlarına meydan oxumasına yol açır.**

Emil Mustafayevin atası Vüqar Mustafayev deyir ki, 2013-cü ildə oğluna ev almaq üçün tanışları vasitəsi ilə mənzil axtarmağa başlayıb. Həmin vaxt tanışı R.Fərəcov deyib ki, o, şəhərin mərkəzində yeni tikilmiş binanın 2 blokunun təmir işlərini podrata götürüb: "Onunla işlə əlaqədar tanış olmuşduq. İnamımı qazanmışdı. O, ən müxtəlif işlərlə məşğul olurdu deyə mənə şəhərin mərkəzində, "28 May" metro stansiyasının yaxınlığında yeni tikilən binada iş götürdüyünü deyəndə təəccüblənmədim. Rauf Fərəcov vaxtilə Konstitusiya Məhkəməsinin qarşısındakı dayanacaqda işləyib. Orada işləyəndən ən müxtəlif məhkəmələrdə çalışan hakimlərlə tanışlığı var. Oradan çıxandan sonra isə Cəlilabaddan torpaq gətirib Bakıda satırdı. Mənə dedi ki, Fəqan müəllim var, Bəylər Əyyubovun bacanağıdır. O, "28 May" metrosunun yanında hündürmərtəbəli bina tikdirib, 2 bloku təmir etməyə mənə podrata verir. Sənə orada evi baha satarlar. Amma mən orda işlədiyimə görə mənə ucuz verirlər. Aparıb binanı da göstərdi. Dedi ki, gözətçilər bizi içəri buraxmazlar. 50 min ver, 43 kvadratmetrlik mənzil bu binadan sənindir".

Beləcə R.Fərəcov V.Mustafayevi aldadaraq ondan hissə-hissə pul almağa başlayıb: "Rauf dedi ki, mənzili adıma keçirib, 1-2 ay sonra sənin oğlun Emilin adına salacağam. Dediyinə görə, 2013-cü ilin martında işə başlamalı idi. Gedib-gəlib deyirdi ki, Fəqan müəllim çağırdı, işə başlayırıq. May ayına qədər gözlədim. İşə başlamadı. Mayda isə onu da, məni də tanıyan ümumi tanışımız dedi ki, Rauf "moşennik"dir, sənə nə evi, nə də pulu verəcək. Bu söhbətdən sonra Raufdan pulu tələb etdim. Dedi ki, avqustdan başlayıb sentyabra qədər pulunu qaytaracağam. Oğlumun kirayədə qaldığını da bilirdi. Sentyabr ayı da yekunlaşdı, pulu vermədi".

V.Mustafayev növbəti dəfə pulunu tələb edəndə R.Fərəcov da növbəti hiyləyə əl atıb: "Dedi ki, gedək notariusdan sənəd verim ki, pulu qaytaracağam. Sonradan bilmişəm ki, bununla o, məndən aldığı pulu guya borc alması təəssüratını yaratmaq üçün belə bir addım atır, notariusdan sənəd işin mülki xarakterli olduğunu demək üçün ona lazımdır. Hüquqi savadsızlığımdam istifadə edib notariusda 1 illik müqavilə bağlayandan sonra da pulu qaytaracağını deyirdi. 2014-cü ilin sentyabrında isə dedi ki, get hara istəyirsən şikayət elə. 2014-cü il oktyabrın 27-də Xətai Rayon Polis İdarəsinə müraciət etdim. Cinayət Məcəlləsinin 178.3.2 maddəsi ilə cinayət işi başlandı. 1 ildir ki, istintaq gedir, nəticə də yoxdur. İş üzrə müstəntiq onə zəng edəndə ilk əvvəl dedi ki, müqavilə̇m var, pulu borc almışam. Sonra isə dedi ki, ümumiyyətlə, məndən pul almayıb".

V.Mustafayev üzləşdiyi dələduzluqla bağlı Prezident Administrasiyası Məhkəmə və Hüquq Mühafizə Orqanlarına Nəzarət Şöbəsinin müdiri Fuad Ələsgərova, Ali Məhkəmənin sədri Ramiz Rzayevə, ədliyyə naziri Fikrət Məmmədova, baş prokuror Zakir Qaralova müraciət edib: "Rauf Fərəcov azadlıqda qaldıqca mənim pulumu qaytarmayacaq. Onda həbs edilməyəcəyinə, mənə qarşı etdiyi dələduzluğa görə cəzasız qalacağına əminlik var. İstintaq orqanı onun həbs olunması üçün Xətai Rayon Məhkəməsinə vəsatət verdi. Onun istintaqdan yayındığını, axtarışa verilərək saxlanaraq istintaqa cəlb edildiyini əsas gətirib həbs edilməsini tələb etdilər. Hakim Fuad Məmmədov vəsatəti təmin eləmədi. Rauf Fərəcov məhkəmədən çıxandan sonra dedi ki, Günəş xanım mənim arxamda dayanıb, 1 gün də olsa həbsdə qalmayacağam. Araşdırdıq, öyrəndik ki, Günəş Xudaverdiyeva Ali Məhkəmədə hakim olub, hazırda təqaüddədir. Sonradan istintaq orqanı apelyasiya instansiyasına vəsatət verib Rauf Fərəcovun həbsini tələb etdi. Lakin yenə də o, həbs olunmadı. Hakim Qədim Babayev sədrlik etdiyi proses yekunlaşandan sonra Rauf Fərəcov yenə də dedi ki, özünüzü yormayın, Günəş xanım mənim həbs olunmağıma imkan verməyəcək. Ona görə də sizlərdən xahiş edirəm ki, mənə qarşı dələduzluq etmiş şəxsin həbsinə yol açan qanuni göstərişlər verəsiniz".

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycanlı professordan 4 ölkə prezidentinə analoqu olmayan təklif - "İttifaq yaradaq..."

## Sabiq maliyyə naziri Saleh Məmmədov təklif edir ki, 4 ölkə Maliyyə Ehtiyatları İttifaqı qursun...

**Azərbaycanın sabiq maliyyə naziri, professor Saleh Məmmədov 4 ölkə prezidentinə müraciət edib. O, həmin müraciəti müsavat.com-a ünvanlayaraq ictimailəşməsini istəyib. Müraciəti təqdim edirik.**

"Azərbaycan Respublikası prezidenti İlham Əliyev cənablarına,

Qazaxıstan Respublikası prezidenti, Nursultan Nazarbayev cənablarına,

Türkiyə Respublikasının prezidenti, Recep Tayyip Erdoğan cənablarına,

Türkmənistan Respublikasının prezidenti Qurbanqulu Berdimuhammedov cənablarına

Hörmətli prezidentlər. Bu gün dünyada hadisə və proseslər çox sürətlə inkişaf edir və cəmiyyətdə dövlətlərimizin mövqeyini möhkəmlətmək üçün analoji tədbirlərin görülməsi zərurəti yaranır. Ölkələrimizin yüksək sürətlə inkişafını təmin etmək üçün ciddi tədbirlər almaq lazımdır. Yüksək inkişaf isə birinci növbədə böyük investisiyalar və uyğun olaraq maliyyə resursları tələb edir. Dünya düzənində paradoksal vəziyyət alınıb: Sovet sistemi dağıldıqdan sonra əmtəə bazarında qiymət və resursların bölgüsündə bərabərlik yaransa da maliyyə və pul bazarlarında çox böyük qeyri-bərabərlik davam etməkdədir. Əmtəə bazarlarında qiymətlər 20-30% amplitutunda fərqlənirsə, maliyyə və pul bazarlarında - (faizlər) 5-10 dəfə fərqlənir. Əsas maliyyə və pul resursları inkişaf etmiş Qərb dünyasında cəmləşmişdi, inkişaf etməkdə olan ölkələrimiz isə maliyyə qıtlığında boğulur. İnkişaf etmiş Qərb ölkələrində hazırda 20 trilyon dollar sərbəst pul vəsaitləri var və bu vəsaitlərin formalaşmasında ölkələrimizin ciddi rolu var. Valyuta rezervlərimizin əsas həcmi Qərb ölkələrində saxlanılır. Halbuki, ölkə



Saleh Məmmədov

içində maliyyə vəsaitlərinə böyük ehtiyac var. Maliyyə bazarlarında vəsait bölgüsünü və pulun qiymətini (faizini) Qərb ölkələri səviyyəsinə çatdırmadan inkişaf etmiş ölkələr səviyyəsinə qalxmamız mümkün deyil. Bu məqsədlə təklif edirəm:

- İlkin olaraq 4 ölkənin (Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan) iştirakı ilə Valyuta Rezervləri İttifaqının yaranması haqqında beynəlxalq konvensiyanı hazırlamaq və onu imzalamaq. Konvensiya bütün ölkələrə açıq ola bilər və tələbləri qəbul edən hər hansı başqa ölkə üzv ola bilər;

- Üzv ölkələr valyuta rezervlərinin bir qismini qarşılıqlı olaraq digər üzv ölkələrin mərkəzi banklarında saxlaya bilər (eyni məbləği həmin ölkədən öz mərkəzi bankında saxlamaq şərtilə); məsələn, Azərbaycan digər hər üç ölkədə rezervlərin bir qismini (hərəsində 5 mlrd dollar, cəmi 15 mlrd dollar) Qərb banklarından çıxardaraq üzv ölkələrin Mərkəzi banklarında və ya dövlət nəzarəti olan iri kommersiya banklarında saxlaya bilər; eyni ilə qarşılıqlı olaraq eyni məbləği üzv ölkələrdən öz Mərkəzi bankında və ya Beynəlxalq bank, Kapital bank kimi etibarlı banklarda yerləşdirməsini istəyə bilər;

- Həmin vəsaitlərin istifadəsi yalnız investisiyaların kreditləşməsinə və ciddi xəzinə nəzarətində həyata keçirilə bilər. İstifadə təlimatları da yalnız konvensiyanın tələblərinə uyğun hazırlanmalıdır.

Belə bir tədbir nə verə bilər?

- Dünya maliyyə bazarlarında vəziyyəti tam dəyişə və "maliyyə məhsullarının" qiymətlərini bərabərləşdirə bilər. 15 mlrd Azərbaycanın (eləcə də digər üzv ölkələrin) kredit ehtiyatlarının həcminin, demək olar ki, iki dəfə artmasına gətirib çıxaracaq ki, bu da kredit faizlərinin ən aşağısı, iki dəfə azalması deməkdir;

- Ölkələrimizin hər hansı ciddi bir krizisi risksiz aradan qaldırmasına və sürətli inkişafa nail olmasına gətirib çıxara bilər. Məsələn, Azərbaycan bazarına əlavə 15 mlrd vəsait daxil olması ciddi genişlənməyə və artıma səbəb olacaq;

- Bu, həm də valyuta və qızıl rezervlərinin saxlanılması zamanı meydana çıxan risklərin şaxələnmə yolu ilə, minimuma endirilməsinə səbəb olacaq. Rezervlər saxlanılan banklar heç də bu ölkələrin dövlətləri qədər sabit deyil;

- Üzv ölkələrdə maliyyə bazarlarının ciddi inkişafına, bank aktivlərinin artmasına, ÜDM -da onların payının tədricən Qərb ölkələri səviyyəsinə çatmasına və bütövlükdə maliyyə resurslarının Qərb ölkələrindən inkişaf etməkdə olan ölkələrə axışına səbəb olacaq.

Belə olan halda rezervlər həm ciddi rezerv rolunu və həm də sürətli inkişaf üçün investisiya mənbəyi rolunu oynaya bilir.

***Hörmətlə professor, doktor Saleh Məmmədov".***

# Problemli kredit zənciri - banklar bağlanmağa doğru...

## Ölkənin bank sisteminin risk dərəcəsi "ən yüksək"dir, əhali əmanətini geri çəkir, banklarsa əmanətləri qaytara bilmir...

**Ölkədə problemli kreditlərin həcmi artır. Bank sistemi ciddi təhlükə qarşısındadır. Beynəlxalq qiymətləndirmə agentliyi olan "Standard & Poor's" Azərbaycan bank sisteminin risk dərəcəsini "ən yüksək" kimi qiymətləndirib. Ekspertlər tezliklə ölkədə bankların bağlanacağının anonsunu verirlər.**



Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı bildirdi ki, problemli kreditlərə görə birinci yerdə Beynəlxalq Bank gəlir: "Söhbət bir neçə milyarddan gedir. Yəqin ki, yaxın aylarda dəqiq rəqəmi elan edərlər. İkinci yerdə "Paşa Bank"dır - 139 milyon. Üçüncü "Bank of Baku"dur - 83 milyon. Dördüncü VTB-dir (Azərbaycan) - 54 milyon. Beşinci "Bank Respublika"dır ki, 33 milyon problemli krediti var. Digərlərində bu rəqəm 30 milyondan azdır. Amma ümumən aktivləri də azdır. Buna görə də problemli kreditlərinin həcmi onlar üçün də dəhşətli səviyyədədir.

Bəs problemli kreditlərin həcmi niyə artır? Əvvəla, ona görə ki, əhalinin gəlirləri azalır, sahibkarlar müflis olur. Yəni ümumi iqtisadi durum pisləşdikcə əhali və biznes kreditləri qaytara bilmir. Digər tərəfdən, devalvasiya da həlledici rol oynayır. Onun nəticəsində kredit qalıqları artıb və borclular sadəcə, ödəniş qabiliyyətini itirib. Banklar bunun təsirini azalda bilərdi əgər güzəştə getsəydilər. Amma getmədilər və nəticədə vəziyyətlərini ağırlaşdırdılar. Təbii, vacib amillərdən biri də bankların özlərində korrupsiya, qeyri-peşəkarlığın hökm sürməsidir. Normal idarəetmə yoxdur. Kimə gəldi, necə gəldi kredit veriblər. Problemli kreditlərin həcmi artdıqca banklara etibar da azalır. Axı banklar öz pullarını deyil, əmanətçilərin pulunu kredit verir və nəticədə batırır. Buna görə də əmanətçilər əmanətlərini geri çəkir".

Ekspertin sözlərinə görə, böyük ehtimalla, yaxında bu vəziyyət bir neçə digər bankda da müşahidə olunacaq: "Buna görə də əhali əmanətlərini daha da sürətlə çıxarmağa başlayacaq. Yəni problemli kreditlərin artması əmanətlərin çıxarılmasını sürətləndirir və bankları müflis edir. Statistikanı gizlətdikləri üçün demək çətindir, istənilən halda, gələn il bankların azı 10-15-i mütləq bağlanacaq".

Ekspert qeyd edib ki, bəzi banklar artıq xeyli müddətdir ki, əmanətləri qaytarmır və Mərkəzi Bank buna göz yumur: "Digər tərəfdən, Mərkəzi Bank artıq 4 aydır ki, bank sektoru üzrə statistikanı gizlədir. Xatırladıram ki, mart-may ayları ərzində banklardan 331 milyon manatdan çox əmanət çıxarılıb. Məhz bundan sonra Mərkəzi Bank statistikanı gizlətməyə başladı. Allah bilir, son 4 ayda banklar nə qədər əmanət itirib. "Standard & Poor's"-dan gələn xəbər əmanətlərin banklardan çıxarılması prosesini daha da sürətləndirə bilər".

Ekspert Natiq Cəfərli isə bildirib ki, problemli kreditlər ölkədə hər ay artır: "2015-ci ilin yanvar ayının 1-ə 900 milyondan bir az çox olan problemli kredit vardı. İndi artıq 1,5 milyard manatı keçib. Burada fevral devalvasiyası da önəmli rol oynadı". Onun sözlərinə görə, bank sistemində olan qeyri-müəyyənlik, yayılan xəbərlər, informasiya fonu insanlarda banklara olan güvəni xeyli zədələyib: "Məhz buna görə də vətəndaşlar banklardan depozitləri çəkməyə başlayıblar. Bankların əsas dövriyyə mənbəyi məhz depozitlərdir, onların azalması təbii ki, bankların ümumi dövriyyəsinə, kredit gücünə təsir göstərir. Ümumiyyətlə, yaxın gələcəkdə bank sektorunda stressli vəziyyət davam edəcək, hətta artacaq, bəzi bankların bağlanması, ya da birləşdirilməsi prosesləri olacaq".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**BMT Baş Məclisinin 70-ci sessiyası ən çox Suriya (Yaxın Şərq) və Ukrayna məsələlərinin beynəlxalq diqqətdə saxlanması ilə tarixə düşdü. Belə qənaət yarandı ki, Dağlıq Qarabağ problemi, Ermənistanın işğalı kimi məsələlər hələ ki, dünyanın, aparıcı güclərin və dövlətlərin gündəliyində ön planda deyil.**






# Qarabağda müharibəyə aparan səbəblər çoxalır

## Prezidentlərin birbaşa görüşləri ilə bu riskləri aradan qaldırmaq imkanları tükənməkdədir; **rusiyalı analitik:** "Yaranmış situasiyadan mütləq kimsə istifadə edəcək, Azərbaycan yeni savaşa itələnir..."

Doğrudur, sessiya çərçivəsində Nyu-Yorkda ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndyan arasında ikitərəfli və çoxtərəfli formatda görüşlər keçirildi, iki ölkə prezidentlərinin növbəti birbaşa görüşünü ilin axırınadək təşkil eləməklə bağlı razılıq əldə olundu. Ancaq eyni zamanda ardınca bu anlaşmanın əhəmiyyətini heçə endirən olaylar da yaşandı.

Söhbət işğalçı ölkənin prezidenti Serj Sərkisyanın BMT tribunasından Azərbaycanın ünvanına növbəti dəfə hədyanlar söyləməsindən gedir. Azərbaycan XİN başçısı Elmar Məmmədyarov öz çıxışında onun layiqli cavabını verdi. Lakin o da aydın oldu ki, dünya ictimaiyyəti hələlik bu marionet, işğalçı Rusiyanın forpostu rolunu oynayan ölkəyə qarşı beynəlxalq hüquq normalarından doğan qətiyyətli yanaşma sərgiləməyə tələsmir, lap dəqiqi, buna hazır deyil - Rusiya və digər amillərə görə.

***

Belədə ilin axırınadək prezidentlərin görüşü baş tutsa da, indidən ondan ciddi nəticə gözləməyə dəymir. Mövcud şərtlər imkan vermir. Ümid qalır Azərbaycanın öz gücünə reallıqları xeyrinə dəyişmək, müharibə variantına.

Əksər siyasi analitiklər, dünyanın nüfuzlu mediası vaxtaşırı yaranmış durumda yeni savaş ehtimalının artdığını bildirir və bir an öncə konflikt nizamlanmazsa, müharibənin alovlanacağı barədə xəbərdarlıq edirlər.

"Dağlıq Qarabağ ətrafında artan gərginlik Rusiyanın maraqlarına xidmət edir və hər an müharibə başlaya bilər". Bu barədə aljazeera.com saytında dərc edilən analitik yazıda deyilir (axar.az). Yazıda qeyd olunur ki, müvəqqəti atəşkəs sazişinin qüvvədən düşməsindən sonra Dağlıq Qarabağ üzərində nəzarəti ələ keçirmək istiqamətində mübarizə aparan tərəflər arasında münaqişə kəskinləşib; iki ölkə arasında konfliktin həlli mümkünsüz hala gəlib, bu isə Rusiyanın işinə yarayır. "Moskva 1994-cü ilin may ayından etibarən mövcud qurumda Fransa və ABŞ arasında üstünlüyü ələ alıb. Minsk Qrupunun yaradılması ilə Moskva mövqeyini möhkəmləndirmiş olub" - qeyd edir sayt.

Sayt iddia edib ki, uzun müddət səssizliyin hökm sürdüyü Dağlıq Qarabağda son vaxtlar münaqişə kəskin dərəcədə pisləşib. Müntəzəm olaraq atəşkəs pozulur, itkilər olur. Şərhdə bu ilin sentyabrından sürətlənən prosesin müharibəyə doğru getməsini göstərən üç əsas səbəb aşağıdakı kimi xarakterizə edilib: "1. Artıq snayperlər əvəzinə top, raket atışları ilə hücumlar edilir. Bu vəziyyət daha ciddi fəsadların olacağından, əməliyyatların miqyasının əhəmiyyətli dərəcədə artacağından xəbər verir. 2. Qarşıdurmanın sahəsi Dağlıq Qarabağın sərhədlərini aşır və hazırda Ermənistan-Azərbaycan sərhədindəki əraziləri əhatə edir. Münaqişə sahəsinin genişlənməsi ilə pilotsuz hava vasitələrindən istifadə də azalıb. 3. Diplomatik variantlardan daha çox silahlı qüvvələrə üstünlük verilməyə başlanıb. Artıq sülh danışıqlarına ümidini kəsən Azərbaycan hücum əməliyyatına üstünlük verir. Buna qarşılıq Ermənistanın Azərbaycanın hücumlarına çətinliklə cavab verməsi münaqişənin böyüməsinə yol açır. Hazırda hər iki tərəf də çətin bir dönəmə daxil olur, gərgin savaşın içərisinə yuvarlanır. Bu proseslər zamanı mövqeyi möhkəmlənən isə yalnız Rusiya oldu. Moskva tərəflərə silah verir, vasitəçilik edir, üstəlik, fəlakətin baş verib-verməməsinə qərar verəcək açar ölkə durumuna gəlib".

Saytın analitikləri daha sonra iddia edir ki, Qarabağ probleminin həlinin mümkünsüz hala gəlməsi, hər iki tərəfdə hərbi proseslərin başlanması Rusiyanın güc və təsirini artırıb və Moskva bu münaqişədən "təsadüfən bir müharibə" başladaraq regionda yeni düşmənlər yaratmaqla gücünü artırmaq niyyətindədir.

Hədəf isə ilk növbədə Moskvanın Azərbaycanda öz hərbi mövcudluğunu bərpa eləməkdir. Hələlik isə şimal qonşumuz hədəfinə Qarabağ zonasına sülhməramlılar göndərməklə nail olmağa çalışır. Müşahidəçilərə görə, Rusiyanın siyasətində belə bir təhlükəli manevrə - bölgədə güc nümayişinə qarşı NATO Gürcüstanda hərbi təlim bazası yaratmaqla reaksiya verib. Çünki ehtimal edilir ki, Dağlıq Qarabağ ətrafında müharibə sürətlə böyüyə, Türkiyə və İran da ona cəlb edilməsinə gətirə bilər. Qardaş Türkiyə isə NATO üzvüdür.

***

Rusiyalı tanınmış politoloq Qriqori Trofimçuk hesab edir ki, Cənubi Qafqaz hazırda gedən dünya müharibəsi fonunda özünün dondurulmuş problemləri ilə heç kimə rahatlıq verməyəcək: "Xatırladım ki, böyük müharibə keçən əsrin 90-cı illərində Serbiyanın paytaxtı Belqradın NATO qüvvələri tərəfindən bombardman edilməsindən sonra başlayıb. 30 sentyabr 2015-ci ildə bu dünya müharibəsinə faktiki olaraq, Rusiya öz ünvanına yönələn terror təhdidlərinə reaksiya vermək üçün daxil olub - Suriyaya girməklə".

Ekspertə görə, Qafqaz və Mərkəzi Asiya SSRİ-nin keçmiş əraziləri içərisində hərbi-siyasi təhlükəsizlik planı cəhətdən daha zəif ərazilərdir: "Bura həmçinin, Xəzər və digər problemlər daxildir. Dağlıq Qarabağda situasiya artıq yerindən tərpənməyə başlayıb. Oradakı hadisələri müharibə olmasa da, yarı-müharibə adlandırmaq olar. Hər iki tərəfdən ağır silahların tətbiq olunması çox şeydən xəbər verir. Bu situasiyadan mütləq kimsə istifadə edəcək. Ona görə də real təhlükə kimi Azərbaycanın yeni Qarabağ müharibəsinə itələnməsini görmək gərəkdir".

Ekspert hesab edir ki, belə bir durumda sülhməramlı qüvvələr məsələsi heç vaxt olmadığı qədər aktual görünür: "Lakin anti-Rusiya imici Qərb tərəfindən yaxşı formalaşdırılıb və bu "brend"dən aktiv şəkildə istifadə ediləcək. Bu dünyanın istənilən yerində, o cümlədən Rusiyanın heç vaxt marağının olmadığı yerlərdə də istifadə olunacaq. Lakin Qarabağa Rusiya heç nə gətirməyəcək. Belə ki, sülhməramlılarının buraya yeridilməsi Ukrayna və Suriyadan sonra onun üçün yeni müharibə demək olardı..."

***

Qarabağa rus hərbi qüvvələrinin gətirilməsinə Azərbaycan ictimaiyyətin münasibəti də kifayət qədər diqqət çəkir. Belə ki, minval.az. saytının öz oxucuları arasında təzəcə apardığı sorğu nəticəsində məlum olub ki, respondentlərin 45%-i hesab edir ki, o halda Azərbaycan öz ərazilərini həmişəlik itirmiş olacaq.

32% Rusiya sülhməramlıların gəlişindən yaxşı bir şey gözləmədiklərini bildirib. "Bu, yalnız Ermənistanın marağındadır" - 10%- respondent vurğulayıb və cəmi 8% respondent düşünür ki, bununla Moskva Azərbaycana kömək edir.

Göründüyü kimi, təkcə Qərb - ABŞ və Avropa deyil, Azərbaycan ictimai fikri də (45 + 32 =77%) rusiyalı hərbçilərin ölkəmizə qayıdışının əleyhinədir. Bu isə ilk öncə elə Ermənistanın 1 nömrəli müttəfiqi olan Rusiyaya illərdir dəyişməyən gerçək neqativ münasibətin, Moskvanın heç vaxt ədalətli münsif kimi qəbul edilmədiyinin növbəti əyani göstəricisidir.

## Sərkisyanla rus generalı arasında müəmmalı Qarabağ müzakirələri

**Ermənistan prezidenti Serj Sərkisyan İrəvanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi, general Nikolay Bordyujanı qəbul edib. Musavat.com erməni qaynağına istinadən xəbər verir ki, tərəflər KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasının Düşənbədə keçirilmiş son toplantısı çərçivəsində qəbul edilmiş qərarların yerinə yetirilməsinin vəziyyətini müzakirə ediblər.**

Sərkisyan və Bordyuja həmçinin, Qafqaz regionunda təhlükəsizliyin qorunması məsələlərinə toxunublar, habelə son vaxtlar Dağlıq Qarabağda təmas xəttində və Azərbaycan-Ermənistan sərhədində gərginləşən situasiyanı müzakirə ediblər - hərçənd, Dağlıq Qarabağ hüquqi cəhətdən KTMT-nin məsuliyyət zonasına daxil deyil, çünki Azərbaycanın tərkib hissəsidir.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Qəribə ölkənin qəribə taleyi

Araz BAYRAMOV

**Hər dəfə Türkiyədə hər hansı bir faciə baş verəndə, çoxlu şəhid xəbərləri gələndə sosial şəbəkələri Azərbaycanla bağlı dezinformasiya bürüyür. Guya ki, Azərbaycan dövlət miqyasında matəm elan edib, bayraqları endirib. Türk səhifələri də belə dezinformasiyanın qənimidirlər. Baxırsan böyük səhifədir, yüz minlərlə izləyicisi var. Biri yayan kimi, söhbət sosial şəbəkələrdə olan bütün türklərə çatır. Hər dəfə bizimkilər girib paylaşımların altından yazırlar ki, inanmayın, belə bir şey yoxdur, yalan məlumatdır, amma qabağını almaq olmur. Maraqlıdır ki, türklər bütün bu cür xəbərlərə yoxlamamış inanırlar, deyirlər Azərbaycandır da, qardaş ölkədir, yəqin eləyər.**

Tarixlə maraqlanandan, istər orta məktəb olsun, istərsə də ali, Türkiyənin yaxın tarixinə həmişə həvəssiz yanaşmışam. Çünki əvvəlki dövrləri çox aydındır, bilirsən ki, məsələn Osmanlı filan döyüşü elədi, filan padşah gəldi, sonra filan dövlət dağıldı, yenisi quruldu və s.

Digər dövlətlərin də həmin dövr tarixi aydındır. Amma bundan baş çıxarmaq olmur. Filan general çevriliş elədi, filankəsi devirdilər, sonra birini asdılar, ondan sonra başqası gəldi, sonra onu da devirdilər. Ara qarışıb məzhəb itib, bilmirsən kim haqlıdır, kim haqsız, kim yaxşıdır, kim pis. Bəlkə də ölkədə yaşayan insanların dilini bilməyimiz, yaxın olmağımız məsələyə dərindən baxmağa imkan yaradır deyə, bizə bu cür görünür, amma istənilən halda fakt budur ki, bu ölkənin yaxın tarixi çox qarışıqdır.

Sveyq yazırdı ki, alman xalqı Hitleri ən çox ona görə dəstəkləyirdi ki, disiplinli yaşasın, qarışıqlıq, qeyri-müəyyənlik, tez-tez baş verən dəyişikliklər onu bezdirmişdi. Türklərin də Ərdoğanı dəstəkləməsi bu inamın, yeni, müasir formasıdır. Adamla Hitlerin hakimiyyətə gəlişi arasında elə də ciddi bir fərq yoxdur. Nitqlərində, xalqdan istəklərində də həmçinin.

Bu günlərdə Krakovda Türkiyənin cənubunda yaşayan bir türkiyəli ilə söhbət eləyirdik. Ölkənin ən qaynar nöqtələrindən birində yaşamaqdan bezmişdi. Deyirdi filan gün yanacaqdoldurma məntəqəsində oturmuşduq, polis gəldi ki, buranı boşaldın, bomba var. Yoxladılar, məntəqənin tavanından bomba çıxdı. Deyir bir də gördün atışmadır, ya haranısa partlatdılar, ya kimisə tutdular.

Növbəti seçkilərdə kimə səs verəcəyini soruşduq, "AKP-yə" dedi. Səbəbini soruşduq, "tek istediyim azacık huzur" dedi.

Həddindən artıq qəribə bir situasiyadır. Hakim partiya ölkədə qarışıqlıq yaradır, insanların yaşam təhlükəsizliyini hədələyən bir şərait qurur, vətəndaş isə bunun sonlandırılması üçün ona səs verir. Hətta ola bilsin ki, o bilir ki, bu qarışıqlıq məqsədyönlü şəkildədir, onun səsini almaq üçün edirlər. Amma yenə də səs verir ki, qulağı dinc olsun. Və bu şəraitin alternativi, yəni hakim partiya gedərsə, ölkədə durumun düzələcəyi ehtimalı, qarışıqlığın əsas qaynağını arxivə yollamaq onun ağlına da gəlmir.

Azərbaycanda müxalifətə normal təbliğat qurmaq, seçicilərə isə həqiqətən seçmək imkanı veriləcəyi təqdirdə hazırkı iqtidarın hakimiyyətdə qala bilməyəcəyi aydın məsələdir. Bu dəyişməz həqiqətdir, hətta ən gözəl seçki kampaniyası qursalar belə saxlaya bilməzlər.

Amma Türkiyənin vəziyyəti başqa cürdür, hər dəfə proses inanılması çətin olan bir nəticə ilə bitir, güman ki, bu dəfə də o cür olacaq. Görəsən bu bəla türk xalqlarının ümumi xarakterindən irəli gələn bir məsələdirmi? Yaxın və ya uzaq gələcəkdə bizi də belə bir tale gözləyirmi? Düşdüyümüz vəziyyət elə də ürəkaçan olmasa da, adamı bu suallar indidən narahat eləyir.

# "BMT-nin belini qıran veto hüququnun olmasıdır"

## Qabil Hüseynli: "Təşkilatı 5 dövlətin inhisarından çıxarmaq zamanı çatıb..."

**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının yubiley sessiyası başa çatdı. Budəfəki sessiyada dünyadakı bir sıra münaqişələr, demokratiya, insan haqları kimi məsələlər ayrı-ayrı böyük dövlətlərin liderlərinin iştirakı ilə müzakirə edildi. Dünyaya hökm edən ABŞ və Rusiya kimi dövlətlərin prezidentlərinin çıxışları ilə yadda qaldı bu sessiya. Ancaq yekunda hər hansı bir problemlə bağlı konkret qərar qəbul edilmədi.**



Beləliklə, BMT-nin diskussiya klubuna çevrilməkdə olduğu rəyləri bir qədər də möhkəmləndi, eyni zamanda "bu cür beynəlxalq təşkilat dünyaya lazımdırmı", "bu təşkilat dünyadakı münaqişələri, problemləri həll edə bilirmi" sualları bir daha meydana gəldi.

Bu barədə fikirlərini "Yeni Müsavat"la bölüşən politoloq Qabil Hüseynli bildirdi ki, BMT-nin haqqında son illər ictimaiyyətin müəyyən kəsimində "dişsiz qurum" imici yaransa da bu qurum əhəmiyyətli təşkilatdır. Dünyada sülhün, əmin-amanlığın möhkəmlənməsində rolu hələ də böyükdür. Sadəcə olaraq, BMT-nin ciddi islahatlara ehtiyacı var: "BMT-nin belini qıran, onun nüfuzunu aşağı salan Təhlükəsizlik Şurasında veto hüququnun olmasıdır. Çünki beynəlxalq təhlükəsizliklə bağlı bütün məsələlər BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edilir və burada da beş dövlətin veto hüququna malik olması istənilən qərarın bir dövlət tərəfindən sabotə edilməsinə və beləliklə də hər hansı bir qərarın qəbuluna maneçilik törədilməsinə şərait yaradır. BMT yaradılarkən bu beş dövlət - ABŞ, İngiltərə, Fransa, Çin və SSRİ (hazırda varis kimi Rusiyadır) təsisçi dövlətlər kimi böyük rol oynayıblar. Amma son zamanlar BMT bu dövlətlərin əlində alətə çevrilib. Rusiya qədər, Fransa qədər, İngiltərə qədər nüfuzlu xeyli dövlət əmələ gəlib. Almaniyanın nüfuzu hazırda Fransanın, İngiltərənin nüfuzundan xeyli çoxdur. Braziliya və Hindistan da təxminən bu səviyyəyə gəlib çatıb. BMT-nin Baş Assambleyası ildə bir dəfə keçirilirsə, Təhlükəsizlik Şurası bütün dövrlərdə BMT-nin ali orqanıdır. Bütün qərarlar da orada qəbul edilir. Qərarların da qəbul edilməsinə və edilməməsinə məhz həmin beş dövlət təsir edir. BMT-nin bir çox ciddi problemlərlə bağlı mandat vermək istədiyi qərarları Rusiya öz veto hüququ ilə qəbul edilməyə qoymur. Nəticə etibarilə lazım olan qərarları vaxtında qəbul edə bilməyən, bir sıra qəbul edilmiş qərarların isə icra olunmasını təmin edə bilməyən BMT proseslərə təsir göstərə bilmir".

Politoloq dedi ki, məhz bu problemin həlli üçün yaxınlarda dörd dövlət - Almaniya, Braziliya, Hindistan və İtaliya BMT Baş Məclisinə xüsusi təkliflə müraciət ediblər. Onlar BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılmasını, veto hüququnun isə ləğv edilməsini, qərarların sadə səs çoxluğu ilə - 50 üstəgəl bir və ya 2/3 səs çoxluğu ilə qəbul edilməsi haqqında təklif irəli sürüblər: "İndi baxaq görək bu məsələ Baş Məclisdə müzakirə ediləcəkmi və BMT-nin islahatları ilə bağlı kardinal qərarlara gediləcəkmi".

Q.Hüseynli vurğuladı ki, BMT-nin digər bir problemi onun nəzarətində olan silahlı qüvvələrin - mavi dəbilqəlilərin çox az sayda olmasıdır: "BMT-yə üzv olan 201 dövlətdən kiçik bir hissəsi bu quruma silahlı qüvvələr ayırır. Bu səbəbdən də BMT beynəlxalq gərginliyin artdığı bölgələrə özünün ciddi bir missiyası ilə mavi dəbilqəlilərini göndərə bilmir. Bunun üçün böyük problemlərdən biri də BMT-nin büdcəsi məsələsidir. BMT-nin büdcəsi kvota ilə müəyyən edilir - əhalinin sayına, iqtisadi sambala uyğun olaraq. BMT-yə üzv olan hər bir dövlət üzvlük haqqı ödəməlidir. Amma elə dövlətlər var ki, 30 ildir üzvlük haqqı ödəmir. Afrika dövləti var ki, 30 ildir üzvlük haqqı ödəyə bilmir. Rusiyanın özü böyük dövlət olmasına və dünyaya əzələ nümayiş etdirməsinə baxmayaraq BMT-nin üzvlük haqqını vaxtlı-vaxtında ödəmir. Bu səbəbdən də ABŞ BMT-nin cari xərclərinin 60 faizə qədərini təkbaşına ödəyir. BMT-nin nüfuzunun azalmasına yuxarıda sadaladığım üç fundamental amil səbəb olur. BMT-ni yox etmək yox, onu oyuncaq bir təşkilata çevirmək yox, onun nüfuzunu qeyd olunan məsələlərlə bağlı islahatlar keçirməklə qaldırmaq vacibdir. BMT-ni 5 dövlətin inhisarından çıxarıb bütün dövlətlərin səsinin eşidildiyi, qərarların qəbulunda iştirak edə biləcəyi orqana çevirmək lazımdır".

❑ Etibar SEYİDAĞA

# Elza Seyidcahan 10 min imza məsələsinə aydınlıq gətirdi

## "Seçicilərimin 10 min deyil, 10 əllə mənə səs verəcəyini demişəm..."

**Deputatlığa namizədliyini irəli sürən əməkdar artist Elza Seyidcahan "durduğu yerdə işə düşüb" desək, yanılmarıq. Belə ki, mətbuatda yayılan məlumata görə bəstəkar-müğənni Cebhe.info saytının müxbirinə açıqlama verərək bildirib ki, iki gün ərzində 10 050 imza toplayıb.**



Elza Seyidcahan

Bunun ardınca isə əməkdar artistin namizədliyini irəli sürdüyü 54 saylı Şabran-Siyəzən seçki dairəsi tərəfindən yayılan xəbərin yalan olduğu barədə açıqlama verilib. Qeyd edilən seçki dairəsinin sədri Saleh Təhməzov mətbuata bildirib ki, Elza Seyidcahan 10 050 deyil, yalnızca tələb olunan 550 imza toplayıb: "Sənədləri yoxlanılıb və Dairə Seçki Komissiyası aidiyyəti üzrə Elza xanıma 11 imza vərəqi təqdim edib. Elza xanım həmin imza vərəqələrini bizdən götürüb və 550 imza ilə birlikdə Dairə Seçki Komissiyasına qaytarıb. Hazırda bəstəkarın imzaları Dairə Seçki Komissiyasının işçi qrupu tərəfindən yoxlanır. İşçi qrupu sonda nə qərar verəcək, onu deyə bilmərəm".

Məsələ ilə əlaqədar əməkdar artist Elza Seyidcahan ilə əlaqə yaratdıq. Bəstəkar-müğənni haqqında yanlış məlumat yayan jurnalisti kəskin tənqid edib: "Axı imza vərəqələri 550 nəfərlik olduğu halda mən necə 10050 səs toplaya bilərəm?! Hər kəs bilir ki, seçkidə yalnız 550 imza toplana bilər. Jurnalist diktofonsuz gəlib məndən müsahibə alır, aldığı məlumatı istədiyi kimi yazıb, hələ üstəlik, "ekzklüziv xəbər" başlığı qoyub mətbuata verir. Bütün mətbuat da "kopy paste" edib səhv məlumatı yayıb. Bir kimsə bu məsələnin doğru və ya yanlış olduğunu araşdırmaq üçün mənimlə əlaqə saxlmağa çalışmadı. Bu da qeyri-peşəkarlığın nəticəsidir".

Elza Seyidcahan başına gələnlər barədə "Yeni Müsavat"a danışıb: "Dayım oğlunun toyunda idim. Toydan çıxıb pilləkənləri enəndə mənə bir xanım yaxınlaşdı. Əvvəl elə bildim ki, mənimlə şəkil çəkdirmək istəyir. Dedi ki, "mən sizin fanatınızam, müsahibə istəyirəm". Sonra isə soruşdu ki, "imza toplaya bilmisinizmi?" Dedim ki, "əlbəttə 550 imzanın hamısını toplamışam. Burda təəccüblü heç nə yoxdur. Mənim seçicilərim mənə 10 əllə səs verməyə hazırdırlar. Əgər 550-dən artıq imza vərəqəsi versəydilər onu da toplayardım. Mən bu hörməti qazanmışam və Azərbaycanın istənilən dairəsindən imza toplaya bilərəm".

Jurnalist isə "on əllə" dediyim sözü " 10 050 imza toplamışam" kimi yazıb. Mətbuatda məlumatı görən kimi həmin jurnalistlə əlaqə saxladım. Xanım jurnalist bildirdi ki, əslində mənim dediklərimi olduğu kimi yazıb, lakin sonradan redaktor sözləri dəyişib. Mən də bildirdim ki, əgər məlumat dəyişdirilməzsə məhkəməyə müraciət edəcəm. Axı belə şeylər nəyə lazımdır? Jurnalistlər hər şeyi olduğu yazmalıdır, reytinq xətrinə başqalarını pis vəziyyətdə qoymaq olmaz".

Qeyd edək ki, sonradan Cebhe.info saytı Elza Seyidcahanın Dairə Seçki Komissiyasına təqdim etməsi ilə bağlı verdiyi açıqlama yazısında anlaşılmazlıq olduğunu, müğənninin seçicilərinin ona on min əlli deyil, "on əllə" səs verəcəyi" ifadəsi işlətdiyini vurğulayıb.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

# Yeni icra başçısı sahibkar-polis qarşıdurmasına müdaxilə etdi

**"Laçın" Ticarət Mərkəzinin rəhbərliyi ilə Dövlət Yol polisi arasında bir neçə gündür ki, davam edən parkomat problemi həll edilib. Problemin həlli üçün Nizami rayonuna yeni icra başçısı təyin olunan Arif Qasımov hadisə yerinə gəlib.**


Arif Qasımov



Ticarət mərkəzinin qarşısındakı səkidən uzun illərdir ki, dayanacaq kimi itifadə olunur. Dayanacaqdan əsasən ticarət mərkəzinə alış-verişə gələn müştərilər istifadə edirdilər. Daha sonra əraziyə parkomat qoyulması üçün Dövlət Yol Polisinin və rayon İcra Hakimiyyətinin əməkdaşları gəliblər. Bazar rəhbərliyi isə bununla razılaşmayıb.

Bir müddət DYP həmin ərazidə maşın saxlanılmasına icazə vermədi. Əsas olaraq isə səkidə maşın saxlamağın qadağan olduğu göstərilirdi. Maraqlısı isə o idi ki, səkidə maşın saxlamağın qadan olduğunu deyən DYP və icra hakimiyyəti nümayəndələri əraziyə parkomat qoymaq istəyirdilər.

Oktyabrın 3-də İcra Hakimiyyətinin nümayəndələri yenidən ticarət mərkəzinin qarşısına parkomat qoymaq məqsədi ilə əraziyə gəliblər. Bu zaman da bazar işçiləri ilə icra nümayəndələri və polis arasında gərginlik yaşanıb. Bir neçə bazar işçisi polislər tərəfindən saxlanılıb. Hadisəyə digər satıcılar da müdaxilə ediblər. Gərginlik böyüyəndən sonra saxlanılan şəxslər buraxılıblar.

Daha sonra əraziyə rayonun yeni icra başçısı Arif Qasımov gəlib. Arif Qasımov bazarın rəhbəri Maqsud adlı şəxslə görüşüb. Tərəflər arasında danışıq razılıqla nəticələnib. Razılığa görə, bazarın qarşısına parkomat qoyulmayacaq və ərazidə maşın saxlanılmasına icazə verilib.

Qeyd edək ki, satıcılar musavat.com-a bildirmişdilər ki, bir neçə gündür, bazarın qarşısında maşın saxlamağa qadağa qoyulduğundan müştərilərin sayı xeyli azalıb. Maşınını saxlamağa yer tapa bilməyən alıcılar bazara gəlmirdilər.

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**

# Reallaşmayan tibbi sığorta və...

## ...təhlükə qarşısında qalan genefondumuz

**Azərbaycan insanı anormal qida rejimi, həmçinin sosial gərginliklər səbəbindən həkimlərə tez-tez müraciət etməli olur. Mətbuatda və sosial mediada yayılan məlumatlardan da görünür ki, ölkədə ağır xəstəliyə düçar olanlar artıq ölümü gözlərinin önlərinə gətirirlər. Buna səbəb isə ölkədə hələ də uzun zamandır gözlənilən tibbi sığorta sisteminin tətbiq olunmamasıdır.**




Kifayət qədər əməkhaqqı almayan Azərbaycan vətəndaşı əksər hallarda xəstəliyini bilsə belə, ağır duruma çatmayana qədər həkimə müraciət etmir.

Dünyanın inkişaf etmiş ölkələrində hər ay ödənilən kiçik məbləğ hesabına vaxtlı-vaxtında həkim müayinəsindən keçmək və müalicə almaq mümkündür. Bu isə yuxarıda qeyd etdiyimiz tibbi sığorta sisteminin məhsuludur. Tibbi sığorta ölkənin sosial-iqtisadi inkişaf xüsusiyyətləri, səhiyyənin təşkilati forması nəzərə alınmaqla tətbiq olunur. Avropa insanında tibbi sığortaya maraq böyükdür. Gəlirlərin normal olduğu və səhiyyənin inkişaf etdiyi ölkələrdə tibbi sığorta ənənəvi hala çevrilib. Məsələn, Almaniyada insanlar hər ay özlərini "check up" müayinə etdirirlər. Bu ölkənin səhiyyə sistemi imkan verir ki, insanlar pulsuz şəkildə özlərini müayinə etdirib, sağlamlıqları ilə bağlı ən kiçik problemi belə yoluna qoysunlar.

Bu ölkədə sosial tibbi sığortanın ən inkişaf etmiş modeli tətbiq olunur. Sözügedən sistem 1883-cü ildə Bismark tərəfindən tətbiq olunub. Sistem sığortalanmış bütün xəstələrə tibbi xidmətin göstərilməsini nəzərdə tutur. Almaniyanın səhiyyə sistemi Avropada ən qədim tarixə malikdir. Burada hər bir vətəndaş 300-dən çox dövlət və ya özəl tibbi sığorta şirkətlərinə qoşula və əmək haqlarından ora ödənişlər edə bilər.

Ancaq vətəndaşlarının qayğısına qalan təkcə Avropa ölkələri deyil. Elə Azərbaycana qonşu olan ölkələrdə də bu sistemə rast gəlmək olur. Qardaş Türkiyədə 1 yanvar 2012-ci il tarixdən bütün vətəndaşlar İcbari Tibbi Sığortaya (İTS) cəlb olunub. Nəticədə isə onlar dövlətin tibbi yardımlarından faydalanırlar. Orada hətta 18 yaşdan yuxarı şəxslər təhsil müddətində ana-atasının tibbi sığortasından faydalanır. Özündən hər hansı bir ödəniş tələb olunmur. Təhsil həyatı başa çatdıqda isə İTS-ya cəlb olunurlar.

İranda da vəziyyət Azərbaycandan çox yaxşıdır. Hətta hər kəsə bəllidir ki, azərbaycanlılar xəstələnən zaman ilk üz tutduqları ölkə məhz İrandır. Burada dərmanların və müalicənin qiymətinin aşağı olması ilə bərabər, tibbi sığortaya da geniş yer verilir.

İranda əhalinin 97 faizinin tibbi sığortası mövcuddur. Xəstələnən iranlı xəstəxanada müalicə xərclərinin ancaq 10 faizini ödəyir.

Azərbaycanda "Tibbi sığorta haqqında" qanun layihəsi 1999-cu ildə prezident tərəfindən imzalansa da, bu günə qədər həyata keçməyib.

Bu ilin 2 oktyabr tarixində Milli Məclisin komitə iclasında çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, gələn ildən Azərbaycanda da tibbi sığorta tətbiq olunacaq. Nazir çıxışı zamanı söyləyib:

"2016-cı ildən, nəhayət, icbari tibbi sığortanın tətbiqinə, icrasına başlanması nəzərdə tutulur. Artıq neçə illərdir ki, bu məsələ ətrafında müzakirələr gedirdi. Hətta dövlət büdcəsindən bu məsələyə maliyyə vəsaiti də ayrılırdı. Amma bəzi səbəblərdən icbari tibbi sığortanın icrasına başlamaq mümkün olmurdu. Nəhayət, gələn ildən icbari tibbi sığortanın tətbiqinə başlanması nəzərdə tutulur. Eyni zamanda, icbari tibbi sığortanın tətbiqi o demək deyil ki, bütün məsələlər bir günün içində həll olunacaq".

Lakin bir şeyi də nəzərə alaq ki, cari ildə Azərbaycanın gəlirləri ötən dövrlə müqayisədə xeyli aşağı düşüb. Eyni zamanda büdcədən əlavə xərclər üçün də ayrılan vəsaitlərdə azalmalar aparılıb. Bütün bunların fonunda 2016-cı ildə tibbi sığorta mexanizminin işə düşməsinin nə dərəcə real olması barəsində musavat.com-a ekspert Rəşad Həsənov danışıb. O bildirib ki, sivil dövlətlərin əsas məqsədləri əhalinin sağlamlığının müdafiəsi və onun ən yüksək səviyyədə təşkil edilməsidir: "Belə bir halda, inkişaf etmiş və inkişafda olan ölkələrdə tibbi sığortanın təşkil edilməsi və bu prosesin sürətləndirilməsi əsas məsələlərdən biridir. ABŞ prezidenti Barak Obamanın hakimiyyətə gəlməsini təmin edən və əhalinin gözündə onun nüfuzunu qaldıran məsələlərdən biri də, bu istiqamətdə planlı işlər görməsi oldu. Bu baxımdan məsələ çox aktualdır. Azərbaycanda hökumət səhiyyə sisteminin ödənişsiz tələblər əsasında qurulduğunu iddia etsə də, hər kəsə məlumdur ki, ölkədə bu prinsip işləmir. Hər bir vətəndaşımız dövlət xəstəxanalarında daima məcburi ödəniş tələbləri ilə üzləşir. Tibbi sığorta sisteminin aktivləşdirilməsinə ciddi ehtiyac var. Uzun zamandır tibbi sığorta üçün büdcədən vəsaitlər ayrılır. Ancaq bu proses icra edilmir, sonda ayrılan vəsaitlər geri qaytarılır".

Ekspert bildirib ki, əksər insanlar səhiyyə xərclərini qarşılamaqda çətinliklə üzləşirlər: "Azərbaycanda insanlar məhz maliyyə probleminə görə öz sağlamlıqlarını axırıncı plana salırlar. Belə bir mühitdə dövlətin icbari tibbi sığorta sistemini tətbiq etməsi mütləqdir. Əks halda növbəti dövrlərdə Azərbaycan əhalisinin sağlamlıqla bağlı ciddi problemlərin yaşayacağının şahidi olacağıq".

❑ **Əli RAİS**

# Ər evindən qəbir evinə...



**Sevinc TELMANQIZI**
**s.qurbanova@gmail.com**

**Bakıda evi yandıraraq özünü 9-cu mərtəbədən atan gənc qadının dramını oxumusuz yəqin. Atası danışıb olanları. Əslində olayın intihar olduğu hələ dəqiqləşməyib, cinayət ehtimalları var. Amma kim nə deyir desin, bu, bir qadının yox, ümumən azərbaycanlı qadınların faciəsidir. Ər evində zülm görən, xoşbəxt olmayan, cəhənnəmi bu dünyada yaşayanların hekayəsi... Bələləri ətrafımızda o qədərdir ki. Onlar bədbəxtdilərsə, bədbəxt olaraq yaşamağa davam etməyə də məhkumdular. Qurtuluş yolu, B variantı yoxdur. Ya ər evi, ya qəbir evi... Şəkildə göründüyü kimi, intihar edən gəlinlə bağlı sonuncu trayektoriya hakim olub - ər evindən birbaşa qəbir evinə.**

Çox uzatmadan, qadının atasının dediklərindən sitatlar vermək istəyirəm. Psixologiyaya, yanaşma tərzinə bir daha baxıb dərs alaq deyə: "Yoldaşım da heç vaxt qızımı haqlı çıxarmırdı, deyirdi başına vursalar da, döz, öldürsələr də otur orda", "Yoldaşım deyirdi ki, uşağın olandan sonra sənə daha heç nə etməyəcəklər, döyməyəcəklər", "Kürəkənimin birinci arvadından niyə övladı olmayıb? Onu da 6-7 ay saxlayıblar, ona da elə işgəncə veriblər, qaçıb ordan", "Qızım Könül paltar qaynadanda qazan xarab olmuşdu. Qayınanası onu evdən qovub göndərmişdi ki, get atan qazanı alsın, gətir", "Oğlan qızımı tez-tez bizə göndərirdi ki, denən atan pul versin. Biz də verirdik...Sonra imkanımız pis oldu, verəmmədik, ondan sonra başladı uşağı döyməyə"...

Adama elə gəlir ki, kimsə bu adamı hipnozlayıb. Bütün dedikləri (eləcə də yazmadığım digər işgəncələr) baş verib, amma o, qızını həmin ailədən çıxarmayıb. Çıxarmayıb, çıxara bilməyib, ya çıxarmaq istəməyib? Məncə, sonuncu variant. Çünki azərbaycanlı ailələrində hələ də bu ab-hava hökmrandır: Ərindir, nə desə, sus. Hər şeyə görə dava salma, yola get, yola ver... Bizim nəsildə boşanan olmayıb, papağımızı yerə soxma... Bu və buna bənzər ağsaqqal-ağbirçək məsləhətləri. Bir çox azərbaycanlı valideynlər üçün qızının boşanması dünyanın sonudur, rəzilliyin dibidir, papağın yerə soxulması, dost-düşmən arasında xəcil olmaqdır. Sanki övladlarına insan kimi yox, qurbanlıq qoyun kimi yanaşırlar. Boğazına qırmızı lenti bağlayıb, göndərirlər ər evinə. "Əti sənin, sümüyü mənim" deyib keçirlər min bir əziyyətlə böyütdükləri balalarının başından.

Analar məsləhət verir: "Bala, qan qussan da, qızıl şərbəti içdim de. Səsini çıxarma, kişilər söz-söhbəti xoşlamırlar", "Başını aşağı sal, uşaqlarına bax da... Nolsun kişi gecələr evə gəlmir? Əsas odu, yeməyində-içməyində korluq yoxdu, balaların gül kimi geyinir, yeyir..". Məsləhət fayda verməyəndə öz "şanlı həyat yollarından" sitatlar gətirirlər: "Elə bilirsən, dədən mənə az zülm verib? Döyməyi də olub, xəyanət eləməyi də, içib evə çörək almadan gəlməyi də... Gör hələ bir dəfə başıma nə gətirdi...?"

Hətta belə danışan analara elə gəlir ki, bunlar qəhrəmandılar, 41-45 müharibəsindən döşü medalla geri qayıdıblar, bütün yaşadıqları da mütləqdir, hamı bu mərhələni keçməlidir. Anlamırlar ki, hamının dözümü, səbir limiti eyni deyil. Kimsə döyüləndən sonra ağzının-burnunun qanını silib oturursa, bir başqası bunu qüruruna sinirə bilməyib canına qıyır. Beləcə, ər evindən meyidi çıxır. O məşhur el məsəlində deyilən kimi: ata evindən ər evinə, ordan da qəbir evinə... Nə gözəl tale, nə müdrik məsləhət, nə işıqlı həyat yolu...

Etiraf edək ki, zülm görən qadınlarımızın əksəriyyətində boşanma cəsarəti azdır. Təsəvvür edin, özünü qıymağa cəsarət edir, amma məhkəməyə ərizə verməyə yox. Bu da başqa bir tendensiya... Fakt isə odur ki, Azərbaycanda boşanmış qadın imicindən qorxanların sayı təxmin etdiyinizdən də çoxdur. Oxumuş, çalışan, hətta ərindən belə çox pul qazanan qadınlar tanıyıram ki, boşanmağa sırf bu imicə görə cəsarət etmir. Xoşbəxt deyil, həyatını mükəlləfiyyətlər üzərində qurub, ya da uşaqlarına parçalanmış ailə travması yaşatmaq istəmir. Nəticədə isə üzdə ailə, daxildə isə Allah bilir nəyə bənzərən bir "institut"un ot kimi yaşaması davam edir. Qadın bilir ki, boşanandan sonra başda qonşular-qohumlar, iş yoldaşları olmaqla bütün çevrə onun nəzarətçisinə çevriləcək. Yoxlayacaqlar, şübhələnəcəklər, məzəmmət edəcək, axırda da şər atacaqlar. Dünənə qədər ona "bacım" deyənlərin boşanandan sonra mənalı-mənalı atmacalarından isə danışmağa belə dəymez. Bir sözlə, bir kabusdan digərinə keçid, yağışdan çıxıb yağmura düşmə... Adını nə qoyursuzsa qoyun, adı birdir - əzab...

Bu və bunun kimi hekayələrdən isə ancaq bir nəticə çıxır - ağıl heç də hər zaman yaşda olmur. Ümumiyyətlə, başda olur. Valideynlər də yanıla bilir. Amma bu yanlışın təlafisi olmur.

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

# Bakını Avropa şəhərindən fərqləndirən daha bir "özəllik" - səs terroru...

## Dəyanət Rzayev: "Belə hallar insan psixologiyasını pozur, ancaq mən heç vaxt xlor satanın üstünə qışqırmaram, çünki..."

**"Yaxşı qatıq var, qatıq!", "Xlor, mebel yağı, nöyüt!", "Alma var, alma!.." Yəqin ki, paytaxt sakinlərinin çoxuna bu cür səslər, çağırışlar tanışdır. Bəlkə də nə vaxtsa bu səslər səhərin şirin yuxusundan sizi oyadıb, qəzəbləndirib.**



Yaxud binanızın yanında fəaliyyət göstərən avtoyumanın sübh tezdən başlayan səs-küyü hərdən insanı az-qala özündən çıxarır. Son vaxtlar şəhərdə gedən tikinti işləri və maşınların sayının artması da texnogen, yəni qeyri-təbii səslərin çoxalmasına səbəb olub.

Ekoloqların dediyinə görə, əslində səs-küyün səviyyəsi 40-50 destibel olmalıdır. Bakıda isə bu, normadan 2-3 dəfə artıqdır. Mütəxəssislər fikrincə, səs-küy, gurultu, insanın psixoloji durumuna mənfi təsir edir, onun aqressivliyini artırır.

Psixoloq Dəyanət Rzayev bu cür səslərin insanın psixologiyasını korladığını dedi: "O vaxt "Mozalan" adlı bir veriliş var idi. Orada bir kişi gecəni səhərə qədər səs-küydən yata bilmir. Gah qonşuların məhəllədə domino oynamasının səsi gəlir, gah da kartof və qatıq satanın qışqırığının səsi. Bir sözlə, səhərə kimi olan səs terroru bu adamı axırda dəli edir. Həmin vaxtlardan üzü bəri ölkəmizdə inkişaf gedib, çoxlu sayda marketlər açılmasına baxmayaraq bu kimi hallara yenə rast gəlirik. Yenə səhər tezdən xlor, qatıq satanların səsinə oyanırıq. Biz Avropa ölkələrində bu cür şeylər görə bilmərik. Çünki orada küçədə nəsə satmağa insanların ehtiyacı yoxdur. Onlarda kompleks olmamasına baxmayaraq bu kimi vəziyyətləri özlərinə sığışdırmırlar. Bizim millət isə kompleksli, utancaq bir millətdir. Görün insanın nə qədər maddi vəziyyəti pis olmalıdır ki, səhər saat 6-dan gəlib qışqırmalıdır. Mən xlor satan insanlar tanıyıram ki, ali təhsillidirlər. Amma maddi vəziyyətin çətinliyi onları küçədə qışqıraraq xlor satmağa məcbur edir".

Psixoloq bu kimi səslərin insanlarda aqressiya yaratdığını bildirdi: "Ümumiyyətlə, insan həyatının üçüncü hissəsini yuxuda keçirir. Məsələn, adicə həkimə gedəndə həkimin ilk sualı yuxunuz necədir olur. Yuxu birbaşa insanın psixikası ilə bağlıdır. Amma təsəvvür edin ki, siz dan yeri sökülər-sökülməz hansısa satıcının və ya binanızın yanındakı avtoyumanın səsinə oyanırsınız. Binamızın yanında fəaliyyət göstərən avtoyumanın səsi səhər tezdən məni oyatmasın deyə məcbur oluram ki, pəncərələri bağlayım. Gedib irad tutanda isə deyirlər ki, bu "moyka" fılan məmurundu, siz heç nə edə bilməzsiniz. Bundan sonra başa düşdüm ki, yazmaq, şikayət etmək mənasızdır. Məmurun obyektidirsə, susmalısan. Amma bu kimi hallar insanın psixologiyasını pozur. Yaxşı yata bilməmək isə insanın psixologiyasına, beyin fəaliyyətinə birbaşa təsir edir. Buna görə də ətrafa baxsaq görərik ki, insanların çoxu əsəbi, gərgin olur. Hər şey yuxudan başlayır. Amma səhər tezdən gəlib nəsə satanları da qınamıram. Onlara xoş deyil ki, səhər tezdən rayondan, kənddən gəlib qatıq, meyvə satsın. O da yuxusuna haram qatıb gəlir. Sosial müavinətlər azdır, qiymətlər isə bahadır. Bir müddət keçəndən sonra artıq həkimlər, müəllimlər də xlor satacaqlar. Çünki aldıqları maaş o qədər azdır ki, o pulla dolanmaq, yaşamaq çox çətindir. Yaxud da marketdə işləyənlər - bütün günü ayaq üstə qalır, kassada oturur axırda da 200-250 manat maaş alır. Bu pul deyil axı. Amma xlor satan günə 10-15 manat qazansa, ayda 400-450 manat pul edir. Ona görə də əlacsızlıqdan yuxularına haram qatıb xlor satırlar. Üstəlik, o küçə alveri ilə məşğul olanların da rahat buraxmırlar. Onlar polisə, yerə görə kimlərəsə hörmət edirlər. Polis 800 manat maaş alır, yazıq alerçi isə səhər tezdən gəlib alverlə məşğul olub 300 manat pul qazanır, onun da bir qismini polisə verir. Burada sosial ədalətsizlik var. Ona görə də mən heç vaxt xlor satanın üstünə qışqırmaram. Əgər mənim hansısa bir moykaya gücüm çatmırsa, xlor satanın üstünə niyə qışqırım. Bizim insanlarımız onsuzda gündüzlə gecəni səhv salıblar. Azərbaycanda gündüzdən çox gecələr səs-küy olur. Məsələn, Almaniyada axşam saat 10-dan sonra heç kimim səsi çıxmır. Bizdə binalar var ki, şadlıq saraylarının, restoranların yanında yerləşir. Gecə saat 12-ə qədər musiqilərin səsindən istirahət etmək olmur. Bu səslər insanın beynini dağıdır. Yaxud səviyyəsiz qonşular var ki, toyxana mahnılarının səsini göyə qaldırıb oturur. Yazıq xlor, meyvə satandan yapışmaqdansa, bunları susdurmaq lazımdır. Azərbaycanda kasıblaşma getdiyi üçün insanların səhər tezdən küçədə gəlib qışqıraraq nəsə satması indiki vəziyyət üçün normaldır".

❑ **Günel MANAFLI**




## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**




## Tərtərdə oğul ata-anasını amansızcasına qətlə yetirdi

**Ötən gecə Tərtərdə dəhşətli qətl hadisəsi baş verib. Rayon prokurorluğundan "Report"a verilən məlumata görə, Cəmilli kənd sakini, 26 yaşlı Nəsibov Qurban Xanbaba oğlu yaşadığı evdə yatmış vəziyyətdə olan 1954-cü il təvəllüdlü atası Nəsibov Xanbaba Qurban oğlunu və 1958-ci il təvəllüdlü anası Nəsibova Nazlı İbrahim qızını baş nahiyəsindən küt alətlə vuraraq qətlə yetirib.**

Hazırda Nəsibov Qurban şübhəli şəxs qismində saxlanılıb.

Rayon prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.7-ci maddəsi üzrə cinayət işi açılıb, araşdırma aparılır.


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

**Azərbaycan mətbuatında Londonda yaşayan azərbaycanlılarla bağlı məlumatlar çox azdır. Daha çox oradakı soydaşlarımız hansısa hadisəyə etiraz məqsədilə aksiya keçirəndə onlardan xəbər tuturuq. Məsələn, son olaraq, Londonda yaşayan bir qrup azərbaycanlı və beynəlxalq hüququn dəstəkçiləri bir araya gəlib iki günahsız mülki azərbaycanlının 20 ildən artıqdır ki, Ermənistan işğalı altında olan öz doğma Kəlbəcər rayonlarında girov götürülməsinə qarşı etiraz piketi keçiriblər.**



# Azərbaycanlı milyonerlərin "Dumanlı Albion"da ev sevdası...

## Böyük Britaniyanın paytaxtında ev sahibi olmağın ilginc yolları, maraqlı məsləhətlər...

Ermənistanın Londondakı səfirliyi qarşısında keçirilən etiraz piketində iştirakçılar əllərində plakatlar tutaraq və şüarlar səsləndirərək, Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu xatırladıb, 54 yaşlı Dilqəm Əsgərov və 46 yaşlı Şahbaz Quliyev üçün ədalət tələb ediblər.

**Londonda elit evlərin 60 faizini əcnəbilər alır**

Amma London əslində varlıların investisiya qoymaq üçün müraciət etdiyi şəhərlər sırasındadır. Londonda evi olmayan milyonerə dünyada az rast gəlmək mümkündür. Niyə London? Niyə məhz ev? Bu sualların cavabını bu yazıda tapacaqsınız. Hələlik isə bu mövzuda gəzişmə edib, ümumi mənzərəni nəzərinizə çatdıraq.

Britaniyanin "The Evening Standard" qəzetinin məlumatına görə, Londonda 2 milyon funt-sterlinqdən (4 milyon dollar) baha olan evlərin sayı 1000-i keçib. Həmin evlərin 40 faizə qədəri ipotekalar hesabına tikilib.

İngiltərə paytaxtında bahalı mənzillərin əksəriyyəti Naytsbric və Belqreyviya rayonlarında yerləşir. Elit alıcıların 60 faizi isə xarici ölkə vətəndaşlarıdır. Şəhərdə qiyməti 8 milyon funt-sterlinqdən yuxarı olan evlərin 21 faizini Rusiya, 13 faizini isə Yaxın Şərq ölkələrinin varlıları ələ keçirib. Britaniya vətəndaşları bu cür evlərin 37 faizinə nəzarət edir. Son bir ildə Londonda elit mənzillərin qiyməti 32 faiz artıb. Bu isə 1979-cu ildən bu yana rekord göstəricidir.

**Dünyada qlobal böhran, Londonda isə qiymətlər süni şəkildə artır**

2009-cu ildən başlayan və təsirləri hələ də davam edən qlobal iqtisadi böhranın nəticəsində Avropanın bəzi ölkələrində, o cümlədən Fransa və Almaniyada daşınmaz əmlakın qiymətləri kəskin ucuzlaşıb. Virtualaz.org saytı Avropa rieltor şirkətlərinin məlumatlarına istinadən xəbər verir ki, bu ölkələrdə evlərin qiyməti hətta 5 dəfə aşağı düşüb. Lakin Böyük Britaniyada nə qlobal böhranın tüğyan etdiyi vaxtlarda, nə də indi evlərin qiymətlərində kəskin ucuzlaşma baş verməyib. Bunun səbəblərindən biri xaricilərin, o cümlədən azərbaycanlıların ev almaq üçün Londona axın etməsidir.

"Knight Frank" rieltor agentliyinin məlumatına görə, Londonda ucuz mənzil almaq mümkün olmayan işdir. Eləcə də Britaniyanın digər şəhərlərində mənzillərin qiymətləri qlobal iqtisadi böhranın təsirlərinə məruz qalmayıb. Əksinə, Londonun elit məhəllələrində daşınmaz əmlakın qiyməti London ətrafındakı mənzillərin qiymətinə nisbətən yeddi dəfə artıb. Orta hesabla isə ölkə boyu bu fərq beş dəfəyə çatır. Eləcə də Londonun mərkəzində mənzilləri şəhərin ətrafına nisbətən 2.5 dəfə baha kirayələmək olar.

Analitiklər bildirirlər ki, Londonun daşınmaz əmlak bazarında qiymətlər xaricilərin öz pullarını Britaniya paytaxtında mənzil və malikanələr almağa yatırması süni şəkildə artırıb. Nəticədə Avropanın qalan yerlərində qiymətlərin ucuzlaşma tendensiyası davam etsə də, Londonda qiymətlər artır. «Knight Frank» agentliyindən Layma Beyli deyir ki, 2009-2012-ci illərdə Londonda mənzil alan xaricilərin sayında kəskin artım olub.

Bu tendensiya ötən il də davam edib. Ötən il Londonda daşınmaz əmlak sövdələşmələrinin 85 faizi xaricilərin iştirakı ilə baş tutub. Xaricilər qiyməti 2 milyon funt sterlinq və daha yüksək olan elit mənzillərin alınmasında da əsas paya sahibdir. Bu il ərzində bahalı mənzillərin satışına dair sövdələşmələrin 60 faizi xaricilər tərəfindən bağlanıb.

Agentliyin baş analitikinin dediyinə görə, Londonda daşınmaz əmlak alanlar arasında ərəb ölkələrinin və Asiya qitəsinin sakinləri liderlik edir. Belə ki, bu il ərzində Londondan mənzil alanların əksəriyyəti misirlilər və türklər, daha sonra ruslar, qazaxlar və ukraynalılar, habelə azərbaycanlılar olublar. Rieltorlar deyirlər ki, Azərbaycandan olan müştərilər elit mənzilləri alanlar arasında da xüsusi seçilirlər.

**Londonda ev almaq istəyirsən, banka gəl...**

Azərbaycanda da londonlu olmaq istəyənlərə bəzi fürsətlər yaradılıb. Məsələn, Azərbaycan Beynəlxalq Bankı (ABB) Böyük Britaniyanda yaşayış sahələrinin tikintisi ilə məşğul olan aparıcı şirkətlərdən biri "Berkeley Group"la birlikdə yeni layihənin icrasına başlayıb. Layihə çərçivəsində ABB özünün VİP müştərilərinə Londonda həm nağd, həm də ipoteka ilə mənzil almaq imkanı yaradır.

"Berkeley Group"un satış meneceri Aleksandra Stak deyib ki, ABB-nin VİP müştəriləri Londonun istənilən yerindən mənzil ala bilər. O əlavə edib ki, Londonda satışa çıxarılan iki yaşayış kompleksindəki mənzillər yalnız ABB-nin VİP müştərilərinə təklif edilir.

Mənzillərin qiyməti 340 000 - 25 000 000 funt sterlinq arasında dəyişir. Londonda mənzil sahibi olmaq istəyən müştəri yaşayış sahəsinin ehtiyatda saxlamaq üçün 5000-20000 funt sterlinq geri qaytarılmayan depozit qoymalıdır. Bundan sonra, müqavilələrin mübadiləsi üçün müəyyən olunan 21 gün ərzində müştəri mənzilin dəyərinin 10%-ni tikinti şirkətinə ödəməlidir. Müqavilələrin dəyişdirilməsindən 6 ay sonra mənzil sahibi olmaq istəyən şəxs növbəti dəfə mənzilin dəyərinin 10%-ni ödəməlidir. Müqavilələrin mübadiləsindən 12 ay keçəndən sonra müştəri daha 10%-lik ödəniş etməlidir. Beləliklə, müştəri 30%-lik ilkin ödənişi etdikdən sonra yerdə qalan 70%-i layihə başa çatandan sonra ödəməlidir.



A.Stak əlavə edib ki, mənzilin alqı-satqısı ilə bağlı müqavilə imzalayan müştəri prosesin gedişində yaşayış sahəsini istədiyi qiymətə digər şəxsə sata bilər: "Londonda banklar əcnəbilərə asanlıqla ipoteka ilə ev almaq imkanı yaratmır. Azərbaycan Beynəlxalq Bankı ipoteka ilə Londonda mülkiyyət sahibi olmaq istəyən VİP müştərilərinə zəmanət verir ki, bu da onların bu prosesdən asanlıqla faydalanmasına imkan verir".

Qeyd edək ki, mənzil təmirli formada müştəriyə təhvil verilir. Məşhur arxitektor və dizaynerlərin göstərişləri əsasında mənzil inşa və təmir edilir. Məhdud olsa da, bu zaman müştərinin bəzi istəkləri nəzərə alınır. Şirkətin satış meneceri əlavə edib ki, Londonda mülkiyyətə investisiya yatırmaq əlverişli sayılır. Çünki, il ərzində burda daşınmaz əmlakın qiymətində 12 faizlik artım qeydə alınır.

**MDB-nin lideri ukraynalılardır**

MDB ölkələrindən Londonda ən çox ev alan Ukrayna sakinləridir. "The Telegraph" qəzetinin yazdığına görə, Rusiya vətəndaşları ikinci sırada gedirlər. Üçüncü, dördüncü və beşinci yerdə Qazaxıstan, Azərbaycan və Gürcüstan vətəndaşlarıdır. Son iki ildə sadalanan ölkələrin sakinləri Britaniya paytaxtında 2 milyard funt sterlinq (3,3 milyard dollar) dəyərində mənzillərə sahiblənibler.

**Devid Kemerondan əcnəbi ev sahiblərinə etiraz: "London qanunsuz pulları saxlamaq yeri deyil"**

Korrupsiyanın dəf edilməsinə yönələn beynəlxalq səylər çərçivəsində "yuyulmuş çirkli pullara" sahib xaricilər Birləşmiş Krallıqda ev almaq imkanından məhrum edilməlidir. Bunu Böyük Britaniyanın baş naziri Devid Kemeron deyib. Sinqapurda çıxış edən David Kemeron Londonda bahalı evlərin alınması üçün istifadə edilən anonim şirkətlərin adlarının açıqlanacağını vəd edib.

Baş nazirin sözlərinə görə, "London qanunsuz pulları saxlamaq yeri deyil". David Kemeron beynəlxalq ictimaiyyəti korrupsiya xərçənginə qarşı mübarizəyə səsləyib.

**London sevdalıları üçün əsas tövsiyələr...**

Bu, məsələnin ümumi görüntüsü. Hesab edək ki, kimsə müəyyən miqdarda pul yığıb, ya da evini satıb, Londonda ev sahibi olmaq istəyir? Bunun həll yolları və detalları necədir? Əsas məsələ sizin Londonun hansı bölgəsində ev sahibi olmaq istəmənizlə bağlıdır. Məlumdur ki, London böyük şəhərdir və orda kiçik büdcə ilə ev tapmaq insanın aylarını əlindən ala bilər. Çünki təbiətin qoynunda ev sahibi olmaq üçün gərək Vestminster meriyasından icazə almaqla yanaşı, əlində də milyonların olsun. O evi tikib hazırlamaq isə xeyli vaxt ala bilər. Ona görə də hər şeydən əvvəl xəyallarınızdakı evin kriteriyalarını müəyyənləşdirin. Nəzərə alın ki, əgər sizin əsas kriteriyalarınız arasında 3 yataq otaqlı, London metrosuna, market və supermarketə piyada 5 dəqiqəlik məsafədə, yaxınlığında məktəb olan ev arzulayırsınızsa... nəzərə alın ki, rəqabət güclü olacaq, çünki bu arzuya düşənlər çoxdur.

Məsələnin maddi tərəflərini həll etmək üçün hesabınızın olduğu banka müraciət etməniz məsləhətdir. Bu zaman sizə daha sərfəli və uyğun məsləhətlər veriləcək. İpoteka, kredit, faizlər... Bunlara baş sındırmanıza ehtiyac yoxdur.

Yaxşı ev tapmaq üçünsə Rightmove və buna bənzər ev elanları yerləşən saytları izləmək lazımdır. Çünki onlardan etibarlı köməkçiniz olmayacaq. İnternet sizə təkcə evin qiyməti ilə bağlı gəzişmə etməyə yox, həmçinin onun ətrafında nələrin yerləşdiyini bilməyə də kömək edəcək. Şəkillər, xəritə bu mənada ideal vasitələrdir. Axtarış zamanı seçilən evin yerləşdiyi rayonda yaşayanların etnik tərkibi, maddi durumu, yaş qrupu barədə də dəqiq məlumatlar əldə etmək mümkündür.

Bundan başqa, bu günə qədər satılmış evlərin real qiymətləri də sizin üçün tapmaca olmayacaq. Zoopla saytında bu haqda müfəssəl məlumatlar yerləşdirilib. Siz evinizdən çıxmadan bu saytda dəqiq araşdırma aparıb, sizə lazım olan evlərin qiyməti barədə real məlumat alacaq və müqayisə aparmaq imkanı qazanacaqsız.

Maraqlıdır ki, arzuladığı evə baxmaq üçün heç də hər alıcının şansı gülmür. Hesab edin ki, siz Londonda arzunuza, büdcənizə uyğun, əla bir mənzil tapmısınız. Daha çox şənbə-bazar günləri evə baxış keçirmək mümkündür. Amma əgər bu evə bir həftə ərzində 15-16 nəfər baxıbsa, sizin şansınız avtomatik olaraq sıfırlanacaq və ev sahibəsi artıq sizin evə baxmanıza icazə verməyəcək. Çünki təkliflər çox olduqca onu seçmək də çətin olur.

Londonda həyət evləri bina evləri ilə müqayisədə yerlilərin daha çox tərcih etdikləri sırasındadır. Onlar həyət evləri nə qədər balaca, həyətyanı sahələri nə qədər qəbir boyda olsa da, ondan vaz keçmirlər.

Alıcılar arasında olduğu kimi, satıcıların da öz favoriti var. Bir qayda olaraq ən cazibədar alıcılar - evin bütün məbləğini nəqd yolu ilə ödəyə biləndir. Çünki bu, sənədləşmə prosedurunu maksimum qısaldır. Adətən bu tip alıcılar daha öncəki evlərini satmış və əllərində pulu olan şəxslər sayılırlar. Digər kateqoriya isə bazarın yeniləridir (first-time buyers). Onlar isə heç nə satmaq zorunda deyillər. Bu səbəbdən də onlarda sənədləşmə və digər prosedurlar daha sürətli gedir. Yeni ev almaq üçün köhnəsini satmalı olan alıcı isə arzuedilməzdir. Çünki nə o adamın özü, nə də ev firması köhnə evin nə zaman, necə, neçəyə satılacağını bilmir və bu, ciddi vaxt və əsəb itkisi deməkdir. Optimal satıcılarınsa alternativ evləri də olur. Belə ki, onlar köhnə evlərini satan kimi köçə biləcəkləri yeni evlərini də ehtiyatda saxlayırlar.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 219 (6247) 5 oktyabr 2015



# 15 yaşda ömürlük həbs olundu

Avstraliyada Veteranlar günündə keçirilən parad vaxtı polislərin başını kəsmək niyyətində olmaqda təqsirləndirilən 15 yaşlı Britaniya vətəndaşı ömürlük həbs cəzasına məhkum olunub. 15 yaşlı gənc hazırda terrorçuluqda ittiham edilən ən gənc britaniyalıdır. Yeniyetmə yalnız bir ittiham üzrə günahını boynuna alıb. Gənc olduğuna görə adı açıqlanmayan yeniyetmə cəzanın 5 ilini terrorçuluqda ittiham edilən şəxslərin həbsxanasında keçirməli olacaq. Məlumata əsasən, müttəhim Avstraliyada əlaqə saxladığı və cihadçı olduğu deyilən başqa bir şəxsə başlarının kəsilməsi yolu ilə polisləri qətlə yetirməyi təklif edib. Məhkəmədə bildirilib ki, polisin vaxtında müdaxiləsi olmasa idi, gənc planlarını gerçəkləşdirə bilərdi. Birinci Dünya müharibəsi vaxtı Türkiyənin qərbindəki Gelibolu yarımadasında hərbi kampaniya vaxtı həlak olmuş Avstraliya və Yeni Zelandiya vətəndaşlarının xatirəsinə həsr edilən veteranlar günü 25 apreldə qeyd olunur. Türkiyəyə gələn dünya liderləri Birinci Dünya müharibəsinin ən qanlı hərbi döyüşündə həlak olmuşların xatirəsini yad edirlər.

# Rus alim "cavanlaşdıran bakteriya" tapdı



Rus alimlər tibb dünyasının illərdir haqqında danışdığı "gənclik dərmanı" haqqında çox önəmli bir addım atıb. Moskva Dövlət Universitetinin araşdırmaçılarından olan Anatoli Bruçkov 2009-cu ildə Sibirdə apardığı araşdırmalar zamanı 3,5 milyon illik bir bakteriya tapmışdı. Həmin dövrlərdə o da məlum olmuşdu ki, yeni tapılan bakteriya canlıların ömrünü uzadır. "Bacillus F" adlı bakteriya uzun müddət laboratoriyada incələndikdən sonra siçanlar üzərində təcrübədən keçirilmişdi. A.Bruçkovun sözlərinə görə, olduqca yaşlı olan siçanların bədəninə bu bakteriya yeridildikdən sonra onlar daha çox hərəkət etməyə başlayıblar və daha çox yaşayıblar. Siçanlara təsir edən bakteriyanın insanlara da yaxşı təsir edəcəyini düşünən professor həmin bakteriyadan öz bədəninə də yeridib. Son iki ildə mütəmadi olaraq bakteriyadan istifadə edən Bruçkov həyatının dəyişdiyini, daha çox hərəkət etdiyini və heç vaxt xəstələnmədiyini deyib. Bakteriyanın insana necə yaxşı təsir etdiyini hələ də anlaya bilmədiyini deyən araşdırmaçı indi bunun səbəbini araşdırır.

# Ən yaxşı atalar Avropada imiş

Atalıq funksiyasını uşaqla zaman keçirməyə və ev işlərinə kömək etməyə görə ən yaxşı avropalı kişilər yerinə yetirirlər. Mütəxəssislərin sözlərinə görə, Avropada atalar xüsusi ilə uşaqlara baxılmasında analara çox kömək edirlər. Son illərdə Avropada ataların ev işlərində və uşaqların baxılmasında rolları olduqca ön plandadır. Psixoloqlar isə ata-anaların birlikdə baxdığı uşaqların daha ədalətli olduğunu deyirlər. Hər zaman ata-anaları ilə birlikdə vaxt keçirən uşaqların beyinləri daha yaxşı inkişaf edir. İslandiyada il ərzində 3 ay ataya, 3 ay anaya, 3 ay isə ata-ananın birlikdə tətilə çıxmasına icazə verilir. 2013-cü ildə aparılan araşdırmalar göstərib ki, bu qayda ataların uşaqları qarşısında məsuliyyətlərinin artmasına səbəb olub.





# Amerikada marixuana kurortu açılır

Cənubi Dakota ştatının yerli santi-siu tayfası ABŞ-da ilk marixuana kurortunu açmaq niyyətində olduğunu bildirib. 400 nəfərin yaşadığı tayfanın rezervasiyasında artıq kazino, otel və ranço fəaliyyət göstərir. Güman edilir ki, açılacaq kurort yeni gəlir mənbəyinə çevriləcək. Cənubi Dakotada marixuana çəkmək yasaqdır, lakin yerli qəbilələrin məskunlaşdığı ərazilərə geniş muxtariyyət verilib və xüsusi hüquqlara malik rezervasiyalarda həyat tayfaların tarixi ənənələrinə uyğun qurulur. İyun ayında santi-siu tayfasına marixuana yetişdirib satmaq haqqı verilib. Məlumata əsasən hər bir adam gündə yalnız bir qram marixuana ala bilər və onu xüsusi ayrılmış yerdə çəkməlidir. Bir qramlıq marixuana paketinin 12-15 dollara satılacağı deyilir. Kurort dekabrın 31-də açılmalıdır. Onun hər gün 2 milyon dollar gəlir gətirəcəyinə ümid edilir.




**QOÇ** - Ağır fiziki işlərdən, riskli sövdələşmələrdən və uzaq səfərlərdən imtina edin. Özünüzü çoxbilmiş kimi göstərməyin. Qida və yuxu rejiminizə fikir verin. Aldığınız təkliflərə isə razılıq verməyə tələsməyin.

**BUĞA** - Xırda maliyyə probleminiz olsa da, çıxılmaz vəziyyətə düşməyəcəksiniz. Ünsiyyətdə olduğunuz insanların bədxahlığına neytral yanaşmayın. Çünki uğursuzluqlarınızın əksəriyyəti cəsarətsizliyinizdən irəli gəlir.

**ƏKİZLƏR** - Hamıdan enerjili və şanslı olmaq üçün düzgün qərarlar verməli, düzgün addımlar atmalısınız. Bu isə çox sahələrdə uğurlarınızı artıracaq. Hazırda üzərinizə düşən başlıca vəzifə münasibətlərə aydınlıq gətirməkdir.

**XƏRÇƏNG** - Gün ərzində ilk növbədə sağlıq durumunuza diqqət yetirin. Fəaliyyətdə uğurlar və şəxsi büdcədə artım barədə isə narahatçılıq olmayacaq. Bu arada əsasən işgüzar sövdələşmələrdə bəxtiniz gətirəcək.

**ŞİR** - Saat 11-dən başlayaraq şəxsi işlərinizdə əsaslı dönüşün baş qaldıracağını bildirən Göy qübbəsi ölçülü-biçili addımlar atmağınızı tələb edir. Yaxın adamlarla, qohum-qonşularla münasibətləri tənzimləməyə çalışın.

**QIZ** - Pulla bağlı problemləri nəzərə almasaq, hansısa çətinliyiniz olmayacaq. Astroloji göstəricilər sevgi ümmanına da baş vurmağınızı tövsiyə edir. Nəzərə alın ki, hazırda təkanverici qüvvəniz daha çox məhəbbətdir.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu füsunkar gün sizin üçün müəyyən mənada gərginliklə müşahidə olunacaq. Bu, daha çox fəaliyyət zəminində baş verə bilər. Odur ki, əsas vaxtınızı istirahətə həsr edin.

**ƏQRƏB** - Fəaliyyətdə bir qədər passivlik müşahidə olunsa da, qarşılıqlı münasibətlərdə və şəxsi büdcəni artırmaqda hər şey normallaşacaq. Saat 17-dən sonra yaxın dostlarınızla görüşməyə çalışın.

**OXATAN** - Əsas diqqəti səhhətinizə yönəldin. Ötən günlərdən yığılıb qalan ağrılarınız qabara bilər. Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə qayıtmayın. Yalnız böyük ideyalarınız barədə düşünün.

**OĞLAQ** - Həmişə başqalarını müzakirə etməkdənsə öz ideya və məramlarınızı analiz edin. Dedi-qodu və qeybət bütün planlarınızı poza bilər. Həyata ayıq gözlə baxın, özünüzə qarşı tələbkar olun.

**SUTÖKƏN** - Hər mənada düşərli gün demək olar. Çünki nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirə biləcəksiniz. Üstəlik, maliyyə çətinlikləriniz də aradan qalxacaq. Təcrübəli adamlarla məsləhətləşin.

**BALIQLAR** - Kifayət qədər maraqlı bir gün yaşayacaqsınız. Yeni insanlarla ünsiyyət, tanışlıq və perspektivli sövdələşmələr gələcəyə nikbin baxmağınıza səbəb olacaq. Doğmalarınızla mümkün əlaqə saxlayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Öz istəyi ilə kor oldu



Amerikanın Karolina ştatında yaşayan bir qadın hər kəsi şoka salıb. Məlumata görə, Jevel Suping adlı qadın həyatı boyunca qurduğu kor olmaq xəyallarını gerçəkləşdirib. J.Supingin psixoloqları gənc qadının gözlərinə dərman tökərək bilərəkdən özünü kor etdiyini deyiblər. 30 yaşlı qadın "uşaq vaxtı anam mənim gözüqapalı qaranlıq koridorlarda gəzdiyimi deyirdi. 18 yaşımda isə gözümü bağlayıb əlimdə əsa ilə yeriməyə çalışırdım" deyib. Məhz bu səbəbdən də o, kor olmağı çox istəyirmiş. Qadının sözlərinə görə, o gec də olsa arzusuna çatıb. Mütəxəssislər isə onun psixoloji problemləri olduğunu düşünürlər.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300